## RUSİYA KİV-LƏRİ PREZİDENT VLADİMİR PUTİNİN AZƏRBAYCANA SƏFƏRİNİ GENİŞ İŞIQLANDIRIB

Rusiyanın aparıcı KİV-ləri Prezident Vladimir Putinin Azərbaycana səfərini geniş işıqlandırıb. AZƏRTAC xəbər verir ki, Rusiyanın "Rossiya 24" telekanalının "Vesti" xəbərlər proqramı Rusiya Prezidentinin Bakıya işgüzar səfəri ilə bağlı böyük reportaj hazırlayıb. Reportajda qeyd olunur ki, Prezident V.Putinin Bakıya səfəri qısa olsa da, mühüm məsələlərin müzakirəsi ilə yadda qalıb. Azərbaycan-Rusiya Regionlararası Forumunda prezidentlər bir sıra mühüm məsələlər, o cümlədən Xəzərin hüquqi statusuna dair...



Bax səh. 2

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ NƏSİMİ - ŞEİR, SƏNƏT VƏ MƏNƏVİYYAT FESTİVALI ÇƏRÇİVƏSİNDƏ SƏRGİLƏR AÇILIB

Sentyabrın 28-də Heydər Əliyev Mərkəzində Nəsimi - şeir, sənət və mənəviyyat Festivalı çərçivəsində üç sərgi - "Live Life", "Hürufilik: incəsənət və identiklik" və Brayn İnonun "77 milyon rəsm əsəri" sərgiləri açılıb. AZƏRTAC xəbər verir ki, sərgilərin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib. Festivalın açılışı münasibətilə təbriklərini çatdıran Leyla Əliyeva bu festivalın dünyada...



Bax səh. 3




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 29 sentyabr 2018-ci il, şənbə / № 184 (5311). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev Tacikistana səfər edib



*Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası olub*



## Prezidentin iş günü

Düşənbədə MDB Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında söhbət olub.

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına, tərəflərin təmas xəttində və Ermənistan ilə Azərbaycan arasındakı sərhəddə insidentlərin qarşısının alınması üçün atəşkəs rejiminin möhkəmlənməsinə dair danışıqlar prosesinə sadiq olduqlarını bildiriblər.

Tərəflər müvafiq strukturlar arasında operativ əlaqə qurulması üçün mexanizmlərin yaradılmasını qərara alıblar.

❖ ❖ ❖

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

### Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib



Sentyabrın 28-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin birinci müavini, komitə sədri Ziyafət Əsgərov...

Bax səh. 4

### Heydər Əliyev Mərkəzində Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalının təntənəli açılışı olub

Sentyabrın 28-də Heydər Əliyev Mərkəzində Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalının təntənəli açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, görkəmli mədəniyyət xadimlərinin, eləcə də musiqisevərlərin qatıldıqları açılış konsertində Nəsimi yaradıcılığından nümunələr təqdim olunub. Xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu ilə Azərbaycan Dövlət Simfonik Orkestri və Dövlət Xor Kapellası görkəmli bəstəkar Fikrət Əmirovun "Nəsimi dastanı" və İsmayıl Hacıbəyovun "Memorial" əsərlərindən parçalar təqdim edib...

Bax səh. 3



## AZƏRBAYCAN PARLAMENTİ ÖLKƏMİZİN MİLLİ MARAQLARINA VƏ İNKİŞAFINA XİDMƏT EDƏN MƏQSƏDYÖNLÜ FƏALİYYƏTİNİ UĞURLA DAVAM ETDİRİR

...Azərbaycan zəngin dövlətçilik ənənələrinə malikdir. Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması isə...

Bax səh. 4

## AZƏRBAYCAN DÜNYANIN KOSMİK SƏNAYESİNDƏ ÖZ MÖVQELƏRİNİ MÖHKƏMLƏNDİRİR

Xəbər verildiyi kimi, cari il sentyabrın 26-da dünyaya hər cəhətdən nümunəvi inkişaf modeli təqdim edən Azərbaycan özünün sayca üçüncü peykini - "Azerspace-2"ni orbitə çıxarıb. "Azerspace-2" telekommunikasiya peyki Bakı vaxtı ilə saat 2:38 radələrində Fransa Qvianasında yerləşən kosmodromdan - Qviana Kosmik Mərkəzindən orbitə buraxılıb. "Azərkosmos"dan bildirilib ki, yeni peykin istismarı üçün Bakıda və Naxçıvan Muxtar Respublikasında yerüstü infrastruktur yenilənib. Orbitdəki sınaq prosesləri və yekun orbital mövqeyə yerləşdirilməsi uğurla başa çatdıqdan sonra peykin idarəçiliyi istehsalçı şirkət tərəfindən "Azərkosmos" ASC-yə təhvil veriləcək ki, bundan sonra peyk kommersiya fəaliyyətinə başlamaq üçün tam hazır vəziyyətdə olacaq. Məlum olduğu kimi, ölkəmiz innovativ əsaslı, elm tutumlu sənaye quruculuğu siyasəti həyata keçirir. Qısa müstəqillik tarixində ölkəmizin dünya kosmos ailəsinin tərkibinə daxil olması və burada öz mövqelərini getdikcə möhkəmləndirməsi...

Bax səh. 6



## ZİYAFƏT ƏSGƏROV: AZƏRBAYCAN-RUSİYA ƏLAQƏLƏRİNİN DAHA DA İNKİŞAF ETDİRİLMƏSİ HƏR İKİ ÖLKƏNİN MARAĞINDADIR

Azərbaycan-Rusiya əlaqələrinin daha da inkişaf etdirilməsi hər iki ölkənin marağındadır. Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov deyib...

Bax səh. 4

### Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilib



Sentyabrın 28-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilib...

Bax səh. 5

### "Vahid Rusiya" Partiyasının gənclər qolu olan "Gənclər Qvardiyası" Ümumrusiya İctimai Təşkilatının nümayəndələri ilə YAP-ın mənzil qərargahında görüş keçirilib



Sentyabrın 28-də Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi...

Bax səh. 5

### Milli Məclisdə "Vahid Rusiya Gənclər Qvardiyası" Ümumrusiya İctimai Təşkilatının nümayəndələri ilə görüş keçirilib



Ölkəmizdə səfərdə olan "Vahid Rusiya Gənclər Qvardiyası" Ümumrusiya İctimai Təşkilatının nümayəndələri sentyabrın 28-də..

Bax səh. 4

### İcbari sığorta ilə bağlı əməkdaşlıq haqqında çoxtərəfli memorandum imzalanıb



İcbari sığorta ilə bağlı əməkdaşlıq haqqında çoxtərəfli memorandum imzalanıb. AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi...

Bax səh. 7

### Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Rusiyanın Azərbaycanlı Gənclər Birliyi arasında memorandum imzalanıb



Sentyabrın 28-də İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Rusiyanın...

Bax səh. 5

# Azərbaycan Prezidenti İlham Əliyev Tacikistana səfər edib

## *Prezident İlham Əliyev Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə görüşündə iştirak edib*







Sentyabrın 28-də Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Azərbaycan və Tacikistan prezidentləri birgə foto çəkdiriblər.

Sonra görüşdə iştirak edən dövlət başçıları birgə foto çəkdiriblər.

Tacikistan Prezidenti Emoməli Rəhmon çıxış edərək qonaqları salamlayıb və iclasın işinə uğurlar arzulayıb. Qeyd edib ki, ötən dövrdə ənənələrə uyğun olaraq ölkələr arasında münasibətlərin möhkəmlənməsinə və inkişafına xüsusi əhəmiyyət verilib.

Tacikistan Prezidenti ölkəsinin MDB çərçivəsində fəaliyyəti barədə məlumat verib. Prezident Emoməli Rəhmon Tacikistanın Şuraya sədrliyi dövründə müxtəlif sahələr üzrə 40 iclasın keçirildiyini diqqətə çatdırıb. Bildirib ki, ötən dövrdə terrorizm, ekstremizm, narkotiklərin qeyri-qanuni dövriyyəsi, iqtisadi sahədə cinayətkarlıq, qanunsuz miqrasiya, insan alverinə qarşı mübarizə məsələləri qarşılıqlı fəaliyyətin əsas istiqamətlərini təşkil edib. **"MDB çərçivəsində qəbul edilən sənədlərə müvafiq olaraq iqtisadi sahədə əməkdaşlıq müsbət nəticələr verib"**, - deyən Tacikistan Prezidenti humanitar sahənin inkişafına da xüsusi diqqət yetirildiyini vurğulayıb.

Emoməli Rəhmon iclası açıq elan edib.

Sonra MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev Şura iclasının gündəliyi barədə məlumat verib.

# Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası olub

## *Azərbaycan Prezidenti İlham Əliyev iclasda iştirak edib*





Sentyabrın 28-də Düşənbədə MDB Dövlət Başçıları Şurasının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə iclası olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

İclasda Prezident Emoməli Rəhmon Tacikistanın sədrliyi dövründə Şuranın fəaliyyəti haqqında məlumat verib. O, bu iclasın nəticəsi olaraq qəbul ediləcək qərarların Şuranın gələcək fəaliyyətinə töhfə verəcəyinə əminliyini ifadə edib. Emoməli Rəhmon 2019-cu ildə MDB-yə sədrliyin Türkmənistana keçməsi barədə Şura iclasının qərarını elan edib.

Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Purli Ağamuradov MDB-yə sədrliyin Türkmənistana keçməsi ilə bağlı qəbul edilən qərara verdikləri dəstəyə görə dövlət başçılarına minnətdarlığını bildirib. O, sədrlik dövründə Türkmənistanın MDB məkanında əməkdaşlığın daha da genişlənməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev Şuranın məhdud tərkibdə iclasında müzakirə olunmuş məsələlər barədə məlumat verib və Şuranın növbəti iclasının 2019-cu ilin oktyabrında Türkmənistanın paytaxtı Aşqabadda keçiriləcəyini diqqətə çatdırıb.

Rusiya Federal Məclisi Federasiya Şurasının sədri, MDB Parlamentlərarası Assambleyasının sədri Valentina Matviyenko kosmik fəzanın sülh məqsədilə tədqiqi və istifadəsi sahəsində əməkdaşlığa dair hazırlanmış Konvensiyanın müddəaları ilə iclas iştirakçılarını tanış edib.

Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy isə 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinin bayram edilməsi ilə bağlı hazırlanmış sənəd barədə məlumat verib. Hər iki sənəd yekdilliklə qəbul olunub.

İclasda bəzi prosedur məsələlərə baxılıb.

Sonra dövlət və hökumət başçıları iclasda müzakirə olunmuş bir sıra sənədləri imzalayıblar.

Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatıb.





# Prezident İlham Əliyev Düşənbədə MDB dövlət başçılarının şərəfinə təşkil olunan rəsmi qəbulda iştirak edib

Sentyabrın 28-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasına səfəri sentyabrın 28-də başa çatıb.

# Rusiya KİV-ləri Prezident Vladimir Putinin Azərbaycana səfərini geniş işıqlandırıb




Rusiyanın aparıcı KİV-ləri Prezident Vladimir Putinin Azərbaycana səfərini geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, Rusiyanın "Rossiya 24" telekanalının "Vesti" xəbərlər proqramı Rusiya Prezidentinin Bakıya işgüzar səfəri ilə bağlı böyük reportaj hazırlayıb. Reportajda qeyd olunur ki, Prezident V.Putinin Bakıya səfəri qısa olsa da, mühüm məsələlərin müzakirəsi ilə yadda qalıb. Azərbaycan-Rusiya Regionlararası Forumunda prezidentlər bir sıra mühüm məsələlər, o cümlədən Xəzərin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsindən sonra açılan geniş əməkdaşlıq perspektivlərindən danışıblar. Həmçinin dövlət başçıları Bakıda keçirilən cüdo üzrə dünya çempionatının yarışlarını da izləyiblər.

"Vesti" proqramının reportajında vurğulanır ki, bu, Rusiya və Azərbaycan prezidentlərinin 2018-ci ildə dördüncü görüşüdür. İki ölkə lideri birlikdə Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak ediblər. Bildirilib ki, Azərbaycan və Rusiya işgüzar dairələri arasında möhkəm əlaqələr mövcuddur. Hazırda 700-dən çox birgə müəssisə fəaliyyət göstərir, Rusiya Azərbaycana 1,5 milyard dollarlıq sərmayə yatırıb.

Reportajda Azərbaycan Prezidenti İlham Əliyevin forumda səsləndirdiyi fikirlərdən sitatlar gətirilir: **"Turizm sahəsində də biz Rusiya vətəndaşları tərəfindən Azərbaycanı ziyarətin çox əhəmiyyətli dərəcədə artdığını görürük. Hələ başa çatmamış 9 ay ərzində 700 minədək rusiyalı Azərbaycanı ziyarət edib. Əminəm ki, bu rəqəm də gələcəkdə artacaq".**

Rusiyanın Birinci Kanalı da Vladimir Putinin Bakıya səfərinə geniş yer ayırıb. Reportajda qeyd olunur ki, Rusiya Prezidenti Vladimir Putin qısa səfəri çərçivəsində Bakıda keçirilən cüdo üzrə dünya çempionatı yarışlarına baxıb, Rusiya komandasının üzvləri ilə görüşüb.

Qeyd edilir ki, Azərbaycan-Rusiya Regionlararası Forumunda hər iki ölkənin prezidentləri çıxış edərək birgə layihələrin son illər sürətlə həyata keçirilməsi, neft hasilatı və nəqli, avtomobil istehsalı, əczaçılıq və digər sahələrdə uğurlu əməkdaşlıqdan söhbət açıblar.

# Heydər Əliyev Mərkəzində Nəsimi - şeir, sənət və mənəviyyat Festivalı çərçivəsində sərgilər açılıb




Sentyabrın 28-də Heydər Əliyev Mərkəzində Nəsimi - şeir, sənət və mənəviyyat Festivalı çərçivəsində üç sərgi - “Live Life”, “Hürufilik: incəsənət və identiklik” və Brayn İnonun “77 milyon rəsm əsəri” sərgiləri açılıb.

AZƏRTAC xəbər verir ki, sərgilərin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Festivalın açılışı münasibətilə təbriklərini çatdıran Leyla Əliyeva bu festivalın dünyada incəsənətin, mədəniyyətin inkişafına mühüm töhfə olacağına əminliyini ifadə edib. Nəsiminin Azərbaycan poeziyasının inkişafında əhəmiyyətli rol oynadığını və poeziyanın şah əsərlərini yaratdığını deyən Heydər Əliyev Fondunun vitse-prezidenti Nəsimi poeziyasının bu gün də yaşadığını və aktual olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, biz bu festivalda Nəsimi poeziyasının ruhunu musiqi, rəqs, incəsənət, videoinstalyasiyalar, yoqo meditasiyası vasitəsilə kəşf edəcəyik və şüurun dərinliyinə səyahət edəcəyik.





Nəsimi festivalı çərçivəsində Heydər Əliyev Mərkəzində üç sərginin açıldığını da qeyd edən Leyla Əliyeva müəllifi olduğu “Live Life” sərgisinin London, Berlin, Moskva, Paris və Tbilisidə nümayiş etdirildiyini, bu sərginin ekoloji problemlərə diqqəti yönəltdiyini bildirib. Qeyd edib ki, eyni zamanda, sərgi bizim planetin gözəlliyini və bütün insanların birliyini vurğulayır.

Leyla Əliyeva Birləşmiş Ərəb Əmirliklərinin Barcil İncəsənət Fondu tərəfindən təqdim olunan “Hürufilik: incəsənət və identiklik” sərgisindən də danışıb, burada bir sıra ərəb ölkələrində yaşayan müasir rəssamların işlərinin təqdim edildiyini söyləyib. Brayn İnonun “77 milyon rəsm əsəri” sərgisində isə musiqinin və video-art instalyasiyanın nümayiş olunduğunu vurğulayıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti festivala gələn qonaqlara minnətdarlığını bildirərək, Nəsiminin poeziyasının daimi olduğunu vurğulayıb. **“Bu əsərləri oxuyanda siz insanın ruhunu hiss edirsiniz. Ümidvaram ki, bu festival nəticəsində Nəsimi poeziyasının bir çox yeni oxucuları üzə çıxacaq və planetimizə daha müsbət ideyalar yayacaqlar”,** - deyən Leyla Əliyeva festivalın işinə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Barcil Fondunun nümayəndəsi Çarlz Pokok, Nəsiminin qohumu Məhəmməd Nəsimi festivalın, eləcə də sərgilərin təşkilinə görə təşəkkür ediblər.

Sonra tədbir iştirakçıları sərgilərlə tanış olublar.






## “LİVE LİFE” SƏRGİSİ

“Live Life” (“Canlı həyat”) sərgisi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunub.

Ekspozisiya London, Paris, Berlin, Moskva və Tbilisidə nümayişdən sonra Bakıya gətirilib. Sərgi ətraf mühit problemlərinə, təbiətin qorunmasına diqqət çəkmək və incəsənətin bu sahədə rolu barədə ictimaiyyəti maarifləndirmək məqsədi daşıyır.

Ekspozisiyaya Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycan rəssamları Məryəm Ələkbərli, Ayləl Heydərova, Nailə Sultan, Rəhim Çopurov, Timur Özdəmirovun əsərləri daxildir və onlar sərginin təqdim olunduğu bütün şəhərlərdə nümayiş etdirilib. Bundan əlavə, hər bir ölkədə keçirilmiş sərgidə iştirak etmək üçün yerli rəssamlar da dəvət olunub.

Heydər Əliyev Mərkəzindəki sərgidə, həmçinin yerli rəssamlar Vasif Nəcəfzadə və Xəzər Nəbiyevin əsərləri təqdim edilir. Suriyada anadan olmuş rəssam Andreas Əl Çreiki, Devid Mçedlişvili (Gürcüstan), Viktor Semyonov (Rusiya), Cennifer Uestcon (Fransa) və Sabina Burmester (Almaniya) də Bakı sərgisinə qoşulublar. Ekspozisiyada 200-dən artıq əsər təqdim olunur.

“Live Life” sərgisinə baxan tamaşaçı bu qənaətə gəlir ki, həyat yaradıcılıqdır. Bu baxımdan həyatı mənalı yaşamağı bacarmaq isə yaradıcılıq hesab oluna bilər. Biz real hərəkətlər vasitəsilə canlı təbiəti, incəsənət vasitəsilə isə insan ruhunu xilas edirik. Çünki gözəlliyə həqiqətən can atmaq bizə kainatı idarə edən qanunları anlamaqda kömək edəcək.



## “HÜRUFİLİK: İNCƏSƏNƏT VƏ İDENTİKLİK” SƏRGİSİ

Heydər Əliyev Mərkəzində açılan “Hürufilik: incəsənət və identiklik” sərgisi Birləşmiş Ərəb Əmirliklərinin Barcil İncəsənət Fondunun kolleksiyası əsasında təqdim edilir. Burada 30-dan çox rəngkarlıq, heykəltəraşlıq və qrafika nümunələri nümayiş olunur.

Bu sərgi hürufilik və onun hazırkı dövrümüzə qədərki inkişaf yolu ilə bağlı yaradıcılıq nümunələrini nümayiş etdirir. Ekspozisiya ayrı-ayrı vaxtlara, yanaşmalara və rəssamlara, eləcə də həmin rəssamları XX və XXI əsrlərdə narahat edən məsələlərə aid yığcam təsvirləri təcəssüm etdirir.

## BRAYN İNO. “77 MİLYON RƏSM ƏSƏRİ” SƏRGİSİ

Festival çərçivəsində Heydər Əliyev Mərkəzində, həmçinin ambient musiqi janrının yaradıcısı, görkəmli britaniyalı bəstəkar Brayn İnonun “77 milyon rəsm” musiqi və video-art instalyasiyası təqdim edilib.

“77 milyon rəsm əsəri” İnonun yaratdığı vizual və səs elementlərinin saysız-hesabsız kombinasiyalarını özündə birləşdirir. Onun özündə cəmləşdirdiyi çoxsaylı videoyazı kataloqunu dərk etmək demək olar ki, mümkün deyil. “Rəsm əsərləri” tamaşaçının bilavasitə gözləri qarşısında alqoritmik şəkildə yaradılmaqla daim inkişaf etməkdə olan audiovizual kaleydoskop tipli videoeffektləri formalaşdırır.

Bu əsər indiyədək Tokio, London, Nyu-York, Buenos-Ayres, Barselona, Sidney, Mexiko, Keyptaun, Roma və digər şəhərlərdə nümayiş olunub.

Brayn İno britaniyalı musiqiçi, müğənni, musiqi nəzəriyyəçisi, səsyazma prodüseri və multimedia rəssamıdır. O, müasir ambient musiqisinin banisi hesab olunur.

Brayn İno beynəlxalq aləmdə ilk dəfə 1970-ci illərin əvvəllərində “Roxy Music” qrupunun üzvlərindən biri kimi tanınıb. Qısa müddətdən sonra onun birinci solo albomu işıq üzü görüb. O, prodüser kimi təxəyyül və bacarıqlarını “Talking Heads”, “Devo”, “Laurie Anderson”, “U2” və “Coldplay” qrupları vasitəsilə albomlarda reallaşdırıb. Onun çoxsaylı müştərək yaradıcılıq işlərinə Devid Boui, Con Keyl, Devid Birn, Qreys Cons, Ceyms Bleyk və bir çox digərləri ilə səs yazıları daxildir.

İno, eyni zamanda, işıq və video ilə vizual eksperimentlər aparıb. Bunlar yaxın onilliklər ərzində onun musiqi yaradıcılığı ilə paralel baş verib. O, öz işlərini Venesiya Biennalesindən tutmuş, Sankt-Peterburq, Pekin və Sidneyədək dünyanın müxtəlif nöqtələrində nümayiş etdirib.

# Heydər Əliyev Mərkəzində Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalının təntənəli açılışı olub

Sentyabrın 28-də Heydər Əliyev Mərkəzində Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalının təntənəli açılış mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, görkəmli mədəniyyət xadimlərinin, eləcə də musiqisevərlərin qatıldıqları açılış konsertində Nəsimi yaradıcılığından nümunələr təqdim olunub.

Xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu ilə Azərbaycan Dövlət Simfonik Orkestri və Dövlət Xor Kapellası görkəmli bəstəkar Fikrət Əmirovun “Nəsimi dastanı” və İsmayıl Hacıbəyovun “Memorial” əsərlərindən parçalar təqdim edib.





Azərbaycan əsilli, tanınmış britaniyalı müğənni Sami Yusufun çıxışı gecəyə xüsusi rəng qatıb. İfalarında Şərqlə Qərbin vəhdətini yaratmış Sami Yusuf ən populyar musiqilərini səsləndirməklə yanaşı, festivalın əhəmiyyətini vurğulayıb, təşkilatçılara minnətdarlığını bildirib, Nəsimi şeiriyyətinin əbədiyaşarlığından danışıb. Nəsimiyə həsr etdiyi kompozisiya və onun ifasında Azərbaycan xalq mahnısı “Sarı gəlin” alqışlarla qarşılanıb.

Gecədə, həmçinin Azərbaycanın Əməkdar artisti Tünzalə Ağayeva Nəsiminin sözlərinə bəstələdiyi “Dua” mahnısını təqdim edib.

Heydər Əliyev Mərkəzində təşkil olunan gecədə Azərbaycan Milli Konservatoriyasının “Əsrlərin sədası” qədim musiqi alətləri ansamblı xüsusi layihə ilə çıxış edib. Ansamblın repertuarı XIV-XV əsrlər görkəmli Azərbaycan musiqiçisi Əbdülqadir Marağayinin bəstələri əsasında müasir bəstəkarların yeni kompozisiyalarından ibarət olub.

Qeyd edək ki, festivala sentyabrın 30-da yekun vurulacaq.

# Bakıda Mixael Hessin “Nəsimi dühası müasir kontekstlərdə” mövzusunda mühazirəsi dinlənilib






Sentyabrın 28-də Nəsimi - şeir, sənət və mənəviyyat Festivalı çərçivəsində Heydər Əliyev Mərkəzində almaniyalı alim, tanınmış nəsimişünas Mixael Hessin (Michael Hess) “Nəsimi dühası müasir kontekstlərdə” mövzusunda mühazirəsi dinlənilib.

Klassik türkdilli Azərbaycan ədəbi irsi əsrlərdir Qərb şərqşünaslığının diqqətindədir. Hazırda bu sahənin nüfuzlu araşdırmaçıları sırasında Mixael Hessin adı ön sıralardadır. Onun Avropanın böyük elmi mərkəzlərində klassik irsimizin nümayəndələri ilə bağlı çıxışları və məqalələri qürurvericidir. Daha çox nəsimişünas alim kimi tanınan Hessdə bu sevgi İstanbulda çalışdığı vaxt yaranıb. Böyük Britaniyadan aldığı elektron məktubda Nəsimi şeiriyyəti ilə ilk dəfə tanış olan alim şairin qələminə necə vurulursa, o vaxtdan da Şərqin böyük mütəfəkkirinin irsini araşdırmağa başlayır. Hətta bu haqda elmi iş də yazır. Mixail Hessin Nəsimi şeiriyyətinə sevgisi onu Azərbaycan dilini öyrənməyə də sövq edib.

AZƏRTAC xəbər verir ki, Mixail Hess mühazirəsində Nəsimi yaradıcılığının müxtəlif cəhətlərini çağdaş baxış bucağından təhlil edib, Qərb oxucusu üçün əhəmiyyətini dəyərləndirib.

O deyib: **“Nəsimi şeirində bir dərinlik, bir duyğu gücü var ki, zənnimcə, hətta tərcümədə belə hiss edilir. Nəsiminin şeirlərində o qədər təfərrüat, o qədər söz, o qədər dərin məna var ki, onun hamısını bir tərcümədə vermək mümkün deyil. Çünki onu vermək üçün minlərcə şərh yazmaq lazımdır”.**

Mixael Hess bu gün Nəsimi əsərlərinin insanlar tərəfindən maraqla oxunmasının səbəblərinə də aydınıq gətirib. Diqqətə çatdırıb ki, Nəsiminin poeziyasının dərk edilməsi oxucudan şairin əsərlərini yazdığı dilləri - ərəb, fars və onun doğma Azərbaycan dilini, klassik Şərq poeziya üslubunu, habelə onun şeirlərinin nəşr edildiyi ərəb qrafikasını bilməyi tələb edir. Şairin “Könlümə heç səndən özgə nəsnə layiq görmədim”, “Məndə sığar iki cahan, mən bu cahana sığmazam” və digər misralarını nümunə gətirən almaniyalı alim Nəsiminin, eyni zamanda, dərin fəlsəfi fikirləri oxucuya sadə dillə çatdırdığını vurğulayıb, şairin təkcə dövrünün ziyalıları, mütəfəkkirləri tərəfindən deyil, hər kəs tərəfindən başa düşülmək arzusunda olduğunu söyləyib. Qeyd edib ki, böyük şair, həmçinin bir çox dərin mətləbləri bizə metaforalarla çatdırıb.

Nəsiminin şeirlərinin Osmanlı imperiyası zamanı XIX əsrdə nəşr edildiyini deyən Mixael Hess onun əsərlərinin sovet dövründə, əlbəttə ki, quruluşun müəyyən ideologiyası çərçivəsində, lakin geniş şəkildə yayıldığını, Nəsimi poeziyasının sovet auditoriyası vasitəsilə digər ölkələrin oxucularına çatdırıldığını qeyd edib.

Görkəmli şairin əsərlərinin bu gün də bir çox dillərə tərcümə olunduğunu bildirən alim Nəsimini tərcümə edərkən özünün qarşılaşdığı çətinlikləri də diqqətə çatdırıb, öz təcrübəsini bölüşüb.

Mühazirədən sonra Mixael Hess tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

# Azərbaycan parlamenti ölkəmizin milli maraqlarına və inkişafına xidmət edən məqsədyönlü fəaliyyətini uğurla davam etdirir



***Milli Məclis sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova www.yap.org.az saytına müsahibə verib:***

**- Bahar xanım, sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirildi. Azərbaycanın ötən müddət ərzində keçdiyi şərəfli tarixi yola yenidən nəzər salındı, ölkəmizin zəngin dövlətçilik təcrübəsinə və parlamentarizm ənənələrinə malik olduğu bir daha diqqətə çatdırıldı. Bu barədə nə deyə bilərsiniz?**

- Azərbaycan zəngin dövlətçilik ənənələrinə malikdir. Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması isə tariximizin ən mühüm - şanlı və qürurlu səhifələrindən birini təşkil edir. Olduqca mürəkkəb tarixi dönəmdə və şəraitdə yaranan Xalq Cümhuriyyəti 23 ay mövcud olmasına baxmayaraq, böyük bir coğrafiyanın siyasi həyatında mühüm rol oynadı, Cümhuriyyətin fəaliyyəti sayəsində dövlətçilik tariximizin əsasları daha da zənginləşdi. Hər şeydən əvvəl, Şərqin ilk demokratik respublikası olan Xalq Cümhuriyyəti mütərəqqi dövlətçilik ənənələri formalaşdırdı. Bu dövrdə müxtəlif sahələri əhatə edən və strateji əhəmiyyətə malik olan çox mühüm addımlar atıldı və tarixi qərarlar qəbul olundu. 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin yaradılması bu baxımdan tarixi əhəmiyyətə malikdir. Parlamentli respublika sisteminin tətbiq edilməsi, demokratik və dünyəvi dövlətçilik yolunda ardıcıl və məqsədyönlü addımların atılması təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin siyasi həyatı üçün əlamətdar oldu. Bu dövrdə parlament qəbul etdiyi qərarlarla milli dövlətçiliyimizin əsaslarının gücləndirilməsinə tarixi töhfələr vermiş oldu.

Təqdirəlayiq haldır ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi respublikamızda və ölkəmizin hüdudlarından kənarda böyük ruh yüksəkliyi və qürur hissi ilə qeyd edilir. Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasın keçirilməsi də bu baxımdan xüsusilə qeyd edilməlidir. Qeyd edim ki, tədbirə dünyanın müxtəlif ölkələrindən parlamentarilər, rəsmilər, beynəlxalq təşkilatların nümayəndələri qatılmışdılar. Daha dəqiq desək, 44 ölkədən 137 parlamentari və 9 beynəlxalq təşkilatın nümayəndələri, bütövlükdə, çoxsaylı qonaqlar bu təntənəli tədbirdə iştirak edirdilər. Çıxış edənlər birmənalı olaraq vurğuladılar ki, bu, Azərbaycan xalqı üçün olduqca şərəfli və qürurverici tarixdir. Həmin dövrdə Azərbaycan parlamenti dünyada parlamentarizm ənənələrinin zənginləşməsinə çox mühüm töhfələr vermişdir. Bəhs olunan təntənəli iclasda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xalq Cümhuriyyəti dövründə 200-dən çox qanunun qəbul edildiyini diqqətə çatdıraraq qadınlara səsvermə hüququ verilməsini xüsusilə vurğuladı: **“Yəni qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti böyük işlər gördü. Bu gün Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirir. Təsadüfi deyil ki, 2018-ci il mənim Sərəncamımla “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilmişdir”.**

Bu gün Xalq Cümhuriyyətinin varisi olan müasir müstəqil Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, tarixi nailiyyətlər qazanır və yeni zirvələr fəth edir. Azərbaycan parlamenti də milli maraqlara və ölkənin inkişafına xidmət edən səmərəli fəaliyyətini uğurla davam etdirir. Respublika parlamenti ötən müddət ərzində çox mühüm qanunlar qəbul edib və ölkəmizdə zəngin qanunvericilik bazasının formalaşmasına öz dəyərli, layiqli töhfələrini verib. Ümumiyyətlə, Azərbaycanın parlamentarizm ənənələri və təcrübəsi bəşər ictimai-siyasi fikir tarixinə əhəmiyyətli töhfədir. Xüsusi məqam ondan ibarətdir ki, Azərbaycan parlamentariləri mövcud hədəflər və çağırışlara müvafiq olaraq milli maraqlara xidmət edən vəzifələrin yerinə yetirilməsi istiqamətində ardıcıl fəaliyyətlərini müvəffəqiyyətlə davam etdirirlər. Xüsusilə, Azərbaycanın milli maraqlarını beynəlxalq miqyasda qətiyyətlə müdafiə edirlər, ölkəmizə qarşı qərəzli və məkrli niyyətlərə söykənən qərarların, qətnamələrin qəbul olunmasının qarşısını alırlar. Prezident İlham Əliyev bu məqamlara toxunaraq bildirdi ki, parlament diplomatiyası Azərbaycanda diplomatik sahədə önəmli rol oynayır. Azərbaycan deputatları bir çox parlamentlərarası assambleyalarda ölkəmizdə gedən proseslər, iqtisadi, siyasi islahatlarla bağlı Azərbaycan həqiqətlərini çatdırır, lazım olan vaxtda Azərbaycanı çox ciddi müdafiə edir, haqq-ədaləti bərpa edir, imkan vermirlər ki, Azərbaycana qarşı əsassız ittihamlar hansısa qərarlara gətirib çıxarsın.

**- Xalq Cümhuriyyətinin varisi olan müasir müstəqil Azərbaycan bu gün dünyada etibarlı tərəfdaş kimi tanınır, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir. Bununla bağlı fikirləriniz nədən ibarətdir?**

- Bir əsrdə iki dəfə müstəqillik əldə edən ölkəmiz ötən müddət ərzində bütün sahələrdə möhtəşəm nailiyyətlər qazanıb və Azərbaycan çoxəsrlik tarixində heç vaxt indiki qədər güclü, qüdrətli olmayıb. Bu gün Azərbaycan təkcə Cənubi Qafqaz regionunun lider dövləti kimi tanınmır, eyni zamanda, ölkəmiz dünya siyasətində etibarlı tərəfdaş kimi tanınır, çox yüksək beynəlxalq nüfuza malikdir. Çoxvektorlu və səmərəli xarici siyasət həyata keçirən Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənir, ölkəmizin dünyadakı rolu artır. Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayının getdikcə artması olduqca qürurverici haldır. Ölkəmiz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik edib və bu, Azərbaycanın həyata keçirdiyi siyasətə beynəlxalq miqyasda verilən yüksək qiymətin bariz nümunəsi və ifadəsidir. Respublikamız gələn il BMT-dən sonra ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrlik etməyə başlayacaq. Bu da olduqca mühüm əhəmiyyət kəsb edir. Bütövlükdə isə, beynəlxalq ictimaiyyət - dünya birliyi Azərbaycana böyük hörmətlə yanaşır, respublikamıza olan rəğbət xüsusi olaraq ifadə edilir.

Siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə ikitərəfli və çoxtərəfli münasibətləri uğurla davam etdirən Azərbaycanı fərqləndirən ən mühüm və səciyyəvi keyfiyyətlərdən biri müstəqil siyasətin həyata keçirilməsidir. Azərbaycanın xarici siyasəti həm müstəqil xarakter daşıyır, həm də beynəlxalq hüquq normalarına və prinsiplərinə söykənir, ikitərəfli, çoxtərəfli münasibətlərin ruhuna - mahiyyətinə əsaslanır. Respublikamızın moderatorluğu və təşəbbüsü ilə strateji əhəmiyyətli layihələr reallaşdırılır, Azərbaycan Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır. Yəni ölkəmiz regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa çox mühüm töhfələr verir. Prezident İlham Əliyev bəhs olunan çıxışı zamanı diqqətə çatdırdı ki, Azərbaycan beynəlxalq məsələlərlə bağlı çox uğurlu siyasət aparır, qonşu ölkələrlə əlaqələrimiz ən yüksək səviyyədədir: **“Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox böyük hörmətə layiqdir. Avropa İttifaqının üzvü olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədimiz var və bu il Tərəfdaşlıq Prioritetləri sənədi imzalanıb”.**

Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycan bu gün həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi tanınır. Ölkəmizdə çox mühüm və mötəbər beynəlxalq tədbirlər keçirilir, regionda və dünyada siyasi proseslərə ciddi şəkildə müsbət təsir edən vacib qərarlar qəbul edilir. Bütün bunları mümkün edən başlıca amil, təbii ki, güclü, qüdrətli Azərbaycanın müstəqil siyasətini uğurla davam etdirməsi və beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirməsidir.

**- Azərbaycan, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması istiqamətində qətiyyətli mövqe və siyasətini davam etdirir. Bununla bağlı nə söyləmək olar?**

- Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində öz qətiyyətli mövqeyini və fəal diplomatik səylərini davam etdirir. Bunun nəticəsidir ki, ayrı-ayrı beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul ediblər. Prezident İlham Əliyev Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda bu məqamlara da toxundu və diqqətə çatdırdı ki, münaqişənin həllinin bir yolu var. Ermənistan silahlı qüvvələri bizim torpaqlarımızdan çıxarılmalıdır, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və ondan sonra bölgədə sülh yarana bilər. Dövlət başçısı Azərbaycanın ərazi bütövlüyünün bütün dünya tərəfindən tanındığını, bütün ölkələrin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu vurğuladı. Əlbəttə, Prezident İlham Əliyevin həmin tədbirdə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı reallıqları və Azərbaycanın mövqeyini qətiyyətlə diqqətə çatdırması çox mühüm əhəmiyyətə malikdir. Bu baxımdan ki, orada müxtəlif ölkələrin parlamentariləri iştirak edirdilər və onlar obyektiv reallıqları əsas götürərək öz ölkələrinin parlamentlərində bu məsələ ilə bağlı müxtəlif qərarların qəbul edilməsinə, eləcə də dövlət siyasətinə əhəmiyyətli dərəcədə təsir göstərə bilərlər.

İndiki şəraitdə parlament diplomatiyası da Dağlıq Qarabağ münaqişəsinin həllinə dair beynəlxalq miqyasda mühüm qərar və qətnamələrin qəbul edilməsinə çox ciddi təsir göstərir. Azərbaycan deputatlarının beynəlxalq miqyasda fəaliyyətinin prioritet istiqamətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar reallıqların dünya ictimaiyyətinə çatdırılması təşkil edir. Bu istiqamətdə ardıcıl və məqsədyönlü fəaliyyət uğurla davam etdirilir. Son illərdə Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti kimi beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli və beynəlxalq hüquq normalarına əsaslanan, ölkəmizin ərazi bütövlüyünün dəstəkləndiyi qətnamələr qəbul ediblər. Bu, olduqca mühüm əhəmiyyətə malikdir.

Bütövlükdə, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində qətiyyətli - prinsipial mövqeyi beynəlxalq hüquq normalarına və ölkəmizin milli maraqlarına əsaslanır. Ermənistanın yeni rəhbərliyi isə bir-birini təkzib edən ziddiyyətli və məntiqsiz bəyanatlar verməklə bu ölkənin qeyri-konstruktiv mövqeyini nümayiş etdirir. Prezident İlham Əliyev haqlı olaraq qeyd etdi ki, bu gün Ermənistandan səslənən çox ziddiyyətli və bəzən cəfəng fikirlər münaqişənin həllinə yox, onun dərinləşməsinə xidmət göstərir. Dövlətimizin başçısı Azərbaycanın öz prinsipial mövqeyindən geri dönməyəcəyini bildirərək vurğuladı ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından da Azərbaycan torpağıdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa edilməlidir.

**- Bahar xanım, bir neçə gün sonra Milli Məclisin payız sessiyası öz işinə başlayacaq. Sessiyanın qanunverici işlər planına hansı məsələlər daxildir?**

- Milli Məclisdə qanunvericilik prosesi məntiqi ardıcıllıqla davam etdirilir. Qanunlar çoxmərhələli müzakirələrdən keçərək qəbul edilir. Ona görə ötən sessiyalarda başladığımız bir sıra qanun layihələri var ki, onlar payız sessiyasının qanunverici işlər planına daxil ediləcək. Üstəlik, payız sessiyası hər zaman büdcə paketinin müzakirə olunması ilə yadda qalır. Bu sessiyada da büdcə paketinə daxil olan qanunları müzakirəyə çıxararaq qəbul edəcəyik.

Bütün komitələrdə artıq qanunverici işlər planına daxil ediləcək layihələrinin müzakirəsinə başlanıb. Ötən sessiyada görülən işlər müzakirə olunur və payız sessiyası üçün tədbirlər planları müəyyənləşdirilir. Artıq komitələrdəki işlər yekunlaşıb. Oktyabrın 1-də isə Milli Məclisin payız sessiyasının açılışı olacaq və biz qanunverici işlər planını müzakirəyə çıxararaq ictimaiyyətə təqdim edəcəyik. İqtisadi, hüquqi və humanitar sahələri əhatə edən qanun layihələri plana daxil edilib.

# Ziyafət Əsgərov: Azərbaycan-Rusiya əlaqələrinin daha da inkişaf etdirilməsi hər iki ölkənin marağındadır



Azərbaycan-Rusiya əlaqələrinin daha da inkişaf etdirilməsi hər iki ölkənin marağındadır.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov deyib.

Ziyafət Əsgərov bildirib ki, Rusiya və Azərbaycan prezidentlərinin görüşləri son vaxtlar intensiv xarakter alıb. Bu da başa düşüləndir. Çünki Azərbaycan-Rusiya münasibətləri strateji xarakter daşıyır və ölkələrimiz arasında müxtəlif sahələrdə sıx əlaqələr mövcuddur. Rusiya bizim üçün yaxın dost, qonşu dövlətdir. Rusiyanın regionları ilə də Azərbaycan arasında sıx əlaqələr var.

**“İqtisadi münasibətimiz yüksələn xətlə inkişaf edir. Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə səfəri, Prezident İlham Əliyevlə görüşü, Bakıda IX Azərbaycan-Rusiya Regionlararası Forumunun keçirilməsi doğurdan da çox əlamətdar bir haldır. Əminəm ki, bundan sonra da Azərbaycan-Rusiya münasibətləri yüksələn xətlə inkişaf etdiriləcək”,** - deyə Milli Məclis sədrinin birinci müavini vurğulayıb.

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib




Sentyabrın 28-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin birinci müavini, komitə sədri Ziyafət Əsgərov gündəlikdəki məsələlər barədə məlumat verib.

Əvvəlcə “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb. Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsinin birinci hissəsində qeyd olunur ki, Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir. Nəzərə alınmalıdır ki, artıq həm Azərbaycan Ordusu, həm də başqa silahlı birləşmələr Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin tərkib hissəsini təşkil edir. Belə olan halda, çoxsaylı qanunvericilik aktlarında istifadə olunan “Silahlı Qüvvələr və başqa silahlı birləşmələr” sözlərinə ehtiyac qalmır.

Bildirilib ki, layihədə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən (Azərbaycan Ordusu və siyahısı Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə müəyyən ediləcək başqa silahlı birləşmələr) başqa hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlar) hərbi xidmət keçən hərbi qulluqçuların statusu ilə bağlı təkliflər də mövcuddur.

Hazırda Azərbaycan Ordusuna və başqa silahlı birləşmələrə aid olmayan, lakin tərkibində hərbi qulluqçuların xidmət keçdiyi müəyyən qurumlar var ki, (məsələn, Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunları istisna olmaqla digər müəyyən qurumlar - Hərbi Prokurorluq və s.) həmin qurumların hərbi qulluqçularının öz hərbi qulluqçu statusunu itirməməsi və onların maddi təminatının pisləşməməsi baxımından Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən (Azərbaycan Ordusu və siyahısı Fərmanla müəyyən ediləcək başqa silahlı birləşmələr) başqa hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlar) hərbi xidmət keçən şəxslərin də hərbi qulluqçu hesab olunması təklif olunur.

Diqqətə çatdırılıb ki, artıq cari il sentyabrın 1-dən tətbiqinə başlanılmış yeni nəsil şəxsiyyət vəsiqələrinin 15 yaşdan verilməsi nəzərə alınaraq təcrübə baş verə biləcək uyğunsuzluqların qarşısının alınması məqsədilə ilkin hərbi qeydiyyatın da 15 yaşdan aparılması nəzərdə tutulur. Ali təhsil müəssisələrində hərbi kafedraların artıq mövcud olmadığı nəzərə alınaraq qanunun ali təhsil müəssisələri tələbələrinin zabitlər hazırlanan xüsusi proqram üzrə hərbi hazırlığı ilə bağlı 11 maddəsinin ləğv edilməsi təklif edilir.

“Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunda nəzərdə tutulan daha bir dəyişikliyə əsasən hərbi qulluqçular və hərbi vəzifəlilər (əsgər, matros hərbi rütbəsinə malik olanlar istisna olmaq) ağır və ya xüsusilə ağır cinayət törətməyə görə məhkum olunduqda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq onlara verilmiş hərbi rütbədən məhrum edilərək əsgər (matros) rütbəsinə endirilə bilər. Eyni zamanda, ehtiyatda olmağın son yaş həddinə çatmayan hərbi qulluqçular Azərbaycan Respublikası Cinayət Məcəlləsinə uyğun olaraq və ya intizam qaydasında hərbi rütbədən məhrum edildikdə (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və “Azərbaycan Respublikası Silahli Qüvvələrinin İntizam Nizamnaməsi”nin 61-ci bəndinin “z” yarımbəndində nəzərdə tutulmuş hallar istisna olmaqla) həqiqi hərbi xidmətdən ehtiyata buraxılır.

İclasda, həmçinin Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edilib. Dəyişikliyə əsasən, törətdiyi cinayətə görə hərbi rütbədən məhrum edilməklə məhkum olunmuş hərbi qulluqçular məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün surəti icra olunması üçün hərbi hissəyə daxil olduğu vaxtdan, ali hərbi rütbədən məhrumetmə hallarında isə bu barədə müvafiq icra hakimiyyəti orqanının sərəncamı qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının siyahısından çıxarılır.

Hər iki qanundakı dəyişikliklər “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar təklif edilir. Sərəncamdan irəli gələrək cəza siyasətinin humanistləşdirilməsi, habelə qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Məcəllənin müvafiq maddələrində dəyişikliklər nəzərdə tutan qanun layihəsi hazırlanıb.

Mövcud dəyişikliklər “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli Qanununa uyğunlaşdırılma məqsədi daşıyır.

Sonda qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Milli Məclisdə “Vahid Rusiya Gənclər Qvardiyası” Ümumrusiya İctimai Təşkilatının nümayəndələri ilə görüş keçirilib





Ölkəmizdə səfərdə olan “Vahid Rusiya Gənclər Qvardiyası” Ümumrusiya İctimai Təşkilatının nümayəndələri sentyabrın 28-də Milli Məclisdə Azərbaycan-Rusiya parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Rusiya parlamentlərarası dostluq qrupunun rəhbəri, komitə sədri Əli Hüseynli ölkələrimizin parlamentləri arasında sıx əlaqələrin mövcud olduğunu deyib. Bildirib ki, parlamentlərimiz arasında qanunvericilik fəaliyyətində səmərəli təcrübə mübadiləsi aparılır. **“Hər iki ölkənin parlamentlərində gənclər də təmsil olunur. Azərbaycan ilə Rusiya gəncləri arasında əməkdaşlığın inkişaf etdirilməsi və bu cür səfərlərin təşkili müsbət haldır”,** - deyə Əli Hüseynli vurğulayıb.

Milli Məclisin deputatı, Azərbaycanda Rus İcmasının sədri Mixail Zabelin sentyabrın 27-də IX Azərbaycan-Rusiya Regionlararası Forumunun keçirilməsinin, Prezident Vladimir Putinin Azərbaycana səfərinin iki ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb. O bildirib ki, iki ölkənin gənclər təşkilatları arasında da əlaqələr müsbət dinamika ilə inkişaf edir.

Azərbaycanın multikultural, tolerant ölkə olduğunu diqqətə çatdıran M.Zabelin qeyd edib ki, ölkəmizdə bütün xalqların nümayəndələri, o cümlədən rus icmasının üzvləri üçün hər cür şərait yaradılıb.

Milli Məclisin deputatı Aydın Mirzəzadə bildirib ki, Rusiya Azərbaycanın dost, qonşu ölkəsidir. Qeyd edib ki, Azərbaycan əhalisinin çoxu rus dilini bilir və ölkəmizdə rus dilinə, mədəniyyətinə böyük hörmət var.

Deputatlar Sevinc Hüseynova, Azər Badamov Azərbaycandakı multikulturalizm ənənələrindən, ölkəmizdə rus dilinə göstərilən diqqət və qayğıdan bəhs ediblər.

Koordinasiya Şurasının üzvü, “Vahid Rusiya Gənclər Qvardiyası” Ümumrusiya İctimai Təşkilatının Tatarıstan regional şöbəsinin rəhbəri Dinar Bariyev bu səfərin mədəniyyətlərarası dialoqa töhfə verəcəyinə ümidvar olduğunu bildirib. O, Azərbaycan və Rusiya gəncləri arasında əlaqələrin inkişaf etdirilməsinin vacibliyini xüsusi vurğulayıb.

# “Vahid Rusiya” Partiyasının gənclər qolu olan “Gənclər Qvardiyası” Ümumrusiya İctimai Təşkilatının nümayəndələri ilə YAP-ın mənzil qərargahında görüş keçirilib

Sentyabrın 28-də Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi qərargahında YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva ölkəmizdə səfərdə olan Rusiyanın “Vahid Rusiya” Partiyasının gənclər qolu olan “Gənclər Qvardiyası” (MGER) Ümumrusiya İctimai Təşkilatının nümayəndə heyəti ilə görüşüb.



Azərbaycana səfər etmələrindən məmnunluğunu bildirən MGER-in Koordinasiya Şurasının üzvü, təşkilatın Tatarıstan regional şöbəsinin rəhbəri Dinar Bariyev Azərbaycanla Rusiyanın strateji tərəfdaş olmaqla yanaşı, həm də dost ölkələr olduğunu diqqətə çatdırıb. Yeni Azərbaycan Partiyası ilə “Vahid Rusiya” Partiyasının əməkdaşlığının əhəmiyyətindən danışan D.Bariyev qeyd edib ki, hər iki partiyanın gəncləri arasında da sıx dostluq münasibətləri mövcuddur. O bildirib ki, nümayəndə heyətinin tərkibində təşkilatın müxtəlif regionlar üzrə strukturlarının rəhbər şəxsləri təmsil olunur. Bu da partiyaların gəncləri arasında dostluq münasibətinin göstəricisidir. D.Baniyev gənclər arasında əlaqələrin daha da inkişaf etdirilməsinə maraqlı olduqlarını söyləyib.





Qonaqları salamlayan Sevinc Fətəliyeva Azərbaycanla Rusiya arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini deyib. S.Fətəliyeva bildirib ki, münasibətlərin inkişafında qarşılıqlı səfərlərin də böyük əhəmiyyəti var. Onun sözlərinə görə, sentyabrın 27-də Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə səfəri də bu baxımdan önəm kəsb edir.

Yeni Azərbaycan Partiyası ilə “Vahid Rusiya” Partiyası arasında əlaqələrin yüksək səviyyədə olduğunu deyən şöbə müdiri iki ölkənin hakim partiyalarının əməkdaşlığının genişlənməsinin əhəmiyyətini vurğulayıb. S.Fətəliyevanın fikrincə, “Gənclər Qvardiyası” təşkilatının nümayəndə heyətinin Azərbaycana səfəri bu önəmin göstəricisidir. YAP üzvlərinin 40 faizinin gənclərdən ibarət olduğunu deyən S.Fətəliyeva hər iki partiyanın gəncləri arasında əlaqələrin genişlənməsini çox müsbət hal kimi dəyərləndirib.

Görüşdə daha sonra qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Rusiyanın Azərbaycanlı Gənclər Birliyi arasında memorandum imzalanıb



Sentyabrın 28-də İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Rusiyanın Azərbaycanlı Gənclər Birliyi (RAGB) arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənədi KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov və RAGB-in sədr müavini Emin Hacıyev imzalayıblar.

Sahibkarlığın inkişafı istiqamətində təşəbbüslərin reallaşdırılmasını nəzərdə tutan memoranduma əsasən, KOBİA və RAGB gənclərin sahibkarlıq fəaliyyətinin təşviqi, bu məqsədlə onların arasında Azərbaycan və Rusiyanın biznes mühitinə dair məlumatlandırma işlərinin aparılması, azərbaycanlı gənc mütəxəssislərin və tələbələrin təcrübə proqramlarının hazırlanması, qabaqcıl təcrübə mübadiləsi istiqamətlərində əməkdaşlıq edəcək.

Tədbirdə O.Məmmədov agentliyin gənclər arasında sahibkarlığın inkişafı və təşviqi sahəsində dövlət qurumları ilə yanaşı, ictimai təşkilatlarla da sıx əməkdaşlıq etdiyini vurğulayıb. Qeyd olunub ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi RAGB Azərbaycan ilə Rusiya arasında əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfələr verir. Bu baxımdan, imzalanmış memorandum gənclərin hər iki ölkədə reallaşdırılan iqtisadi layihələrin fəal iştirakçısına çevrilməsində əhəmiyyətli rol oynayacaq.

RAGB-in reallaşdırdığı layihələr barədə ətraflı məlumat verən E.Hacıyev diqqətə çatdırıb ki, 2009-cu ildə Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış təşkilat hazırda Rusiyanın 50-dən çox federal subyektində fəaliyyət göstərir və ətrafında minlərlə azərbaycanlı gənci birləşdirir.

Emin Hacıyev imzalanmış memorandumun gənclər arasında sahibkarlığın təşviq olunmasında əhəmiyyətini vurğulayıb.

# Bakı Limanında iki ədəd yeni yedək gəmisi istismara verilib

Bakı Limanında iki ədəd yeni yedək gəmisi istismara verilib.



AZƏRTAC xəbər verir ki, sentyabrın 28-də “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinin donanmasının tərkibinə iki yeni “Alat” və “Silk Way” yedək gəmiləri daxil edilib.

Prezident İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq sifariş olunan yedək gəmiləri Beynəlxalq Dəniz Təşkilatının standartları və Beynəlxalq Təsnifat Cəmiyyətləri Assosiasiyasının üzvü olan “Bureau Veritas” Təsnifat Cəmiyyətinin nəzarəti altında inşa olunub.

Xatırladaq ki, cari il mayın 14-də Prezident İlham Əliyevin iştirakı ilə Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının açılış mərasimi keçirilib. Ən son texnoloji imkanlara malik kranların, yükqaldırıcı və yüknəqledici avadanlıqların istismara verilməsi, müasir liman əməliyyat sisteminin qurulması və hazırda iki yedək gəmisinin əməliyyatlara cəlb olunması ilə yeni Bakı Limanı dünya standartlarına cavab vermiş olur. Bütün bunlar, Prezident İlham Əliyevin yeni Bakı Limanına göstərdiyi diqqət və qayğı sayəsində mümkün olub.

Dünən istismara verilən yeni yedək gəmiləri, müasir radionaviqasiya, xilasedici və yanğınsöndürmə avadanlıqları və sistemləri ilə təmin olunub, gücü 1220 kilovat (KVt) olan iki baş mühərriklə təchiz edilib.

Onların texniki göstəriciləri sərt hava şəraitində limana daxil olan gəmilərin yanalma əməliyyatlarında yardımetməyə imkan verir. Bu gəmilərin yanacaq, içməli su ilə təchizatı və digər texniki xüsusiyyətləri onların limanda fasiləsiz istismarına şərait yaradır. Eyni zamanda, gəmilərdə quraşdırılan müasir yanğınsöndürmə avadanlığı liman akvatoriyasında baş verən yanğın hadisəsinə ilkin müdaxilə etməyə imkan verir.

“Alat” gəmisinin uzunluğu 14.90 metr, eni 5.90 metr, ümumi tutumu 56 ton, gəminin sürəti isə 10 uzel (18.5 kilometr saatda) təşkil edir. “Silk Way” gəmisinin uzunluğu 17 metr, eni 6.80 metr, ümumi tutumu 82 ton, sürəti isə “Alat” gəmisi ilə eynidir.

Türkiyədə istehsal olunan gəmilərin istifadəyə verilməsi mərasimində nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə yeni yedək gəmilərin istismara verilməsi münasibətilə liman əməkdaşlarını təbrik edib və Azərbaycanın beynəlxalq logistika mərkəzinə çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin reallaşmasında limanın artan rolunu qeyd edib.

Bakı Limanının baş direktoru Taleh Ziyadov çıxış edərək yeni Bakı Limanında 2 yeni yedək gəmisinin istismara verilməsini limanda dünya standartlarına cavab verən xidmətlərin göstərilməsi istiqamətində daha bir vacib addım kimi dəyərləndirib.

Mərasimin sonunda hər iki gəminin heyəti liman buxtasında gəmilərin texniki göstəricilərini, yanğınsöndürmə kimi əlavə imkanlarını və gəmi heyəti üçün komfortlu xidmət imkanlarını qonaqlara nümayiş etdirib. Qonaqlar liman ətrafında yeni gəmilərlə səfərə çıxaraq onun əməliyyat imkanları ilə əyani tanış olublar.

Xüsusilə qeyd etmək istərdik ki, yeni liman ildə 15 milyon ton yük, həmçinin 100 000 TEU konteyner aşırmaq gücündədir.

# Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilib

*2002-ci ildən başlayaraq keçirilən müsabiqələr nəticəsində işə qəbul edilmiş 873 gənc mütəxəssis hazırda prokurorluq işçilərinin ümumi sayının 67 faizini təşkil edir*



Sentyabrın 28-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşlar əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Şəhidlər xiyabanına gələn gənc hüquqşünaslar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər.

Mərasimdə çıxış edən baş prokuror Zakir Qaralov diqqətə çatdırıb ki, prokurorluğun kadr tərkibinin formalaşdırılmasının yeganə düzgün yolu kimi beynəlxalq standartlara uyğun şəffaf prosedur qaydalar əsasında gənc mütəxəssislərin işə qəbulu əsası xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Prezidenti İlham Əliyevin yeni müstəvidə uğurla davam etdirdiyi hərtərəfli məhkəmə-hüquq islahatları nəticəsində mümkün olub. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli fərmanı ilə təsdiq edilmiş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnaməyə uyğun olaraq, tam aşkarlıq şəraitində, şəffaf prosedurlarla, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələri nümayəndələrinin müşahidəsi ilə keçirilən müsabiqədə seçilmiş ən layiqli namizədlər bu gün müxtəlif vəzifələrə təyinatlar alıblar.

Qeyd olunub ki, prokurorluq orqanlarında işləmək arzusunu reallaşdırmaq üçün Baş Prokurorluğun Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə keçirdiyi qəbul prosesində iştirak etmiş gənc hüquqşünasların arasından ən layiqli 85 namizədin andiçmə mərasimi Azərbaycan Prokurorluğunun 100 illik yubileyinə təsadüf edir. Bu gün hərtərəfli inkişaf edən ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük quruculuq işləri həyata keçirilməklə əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, regionun aparıcı dövlətinə çevrilən ölkəmizin iqtisadi qüdrətinin möhkəmləndirilməsi, demokratik dəyərlərə əsaslanan dünyəvi və hüquqi dövlət quruculuğunun tam yeni məzmunlu bir mərhələyə yüksəldilməsi istiqamətində möhtəşəm işlər görülür.

Mərasimdə vurğulanıb ki, gənclərə hərtərəfli qayğı və diqqət göstərilməsi, onların problemlərinin həlli istiqamətində bütün dövlət təsisatları tərəfindən zəruri tədbirlərin görülməsi, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə respublikamızda aparılan dövlətçilik siyasətinin prioritet istiqamətlərindən biridir.

Diqqətə çatdırılıb ki, 2000-ci il aprelin 26-da Ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən müşavirədə əsası qoyulan, prokurorluqda bu gün də uğurla davam etdirilən hərtərəfli islahatlar prosesinin ən mühüm istiqamətlərindən biri kimi müsabiqə yolu ilə qulluğa qəbulun alternativi yoxdur və bu, prokurorluğun kadr tərkibinin komplektləşdirilməsinin ən mütərəqqi vasitəsidir. 2002-ci ildən başlayaraq keçirilən 19 müsabiqə nəticəsində işə qəbul edilmiş 873 gənc mütəxəssis hazırda prokurorluq işçilərinin ümumi sayının 67 faizini təşkil edir. Müsbət haldır ki, müsabiqə yolu ilə ilkin qəbulların nəticələrinə görə prokurorluqda qulluğa qəbul olunmaqla fəaliyyətləri dövründə xidməti vəzifələrinə vicdanlı münasibətləri və peşə hazırlığı səviyyəsinə görə seçilən bir çox gənc mütəxəssislər vəzifədə irəli çəkiliblər.

Azərbaycan Respublikası baş prokurorunun müavini, müsabiqə komissiyasının sədri Namiq Əsgərov qulluğa qəbulla əlaqədar müsabiqənin keçirilməsi ilə bağlı mərasim iştirakçılarına ətraflı məlumat verib.

Sonra prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə Baş Prokurorluq üzrə əmr elan edilib, işə qəbul olunanlar Azərbaycan Respublikasının dövlət bayrağı önündə təntənəli surətdə and içiblər.

Mərasimdə çıxış edən gənclər prokurorluğa işə qəbulun obyektiv, ədalətli və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün yaradılmış şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirib və onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz veriblər.

Baş prokuror Zakir Qaralov mərasimə yekun vuraraq prokurorluğa qulluğa qəbul olunan gəncləri təbrik edib, prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarına əmin olduğunu bildirib.

Tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

# Azərbaycan Xalça Muzeyində vətənə qaytarılan qədim xalçalar təqdim olunub






Sentyabrın 28-də Azərbaycan Xalça Muzeyində muzeyə hədiyyə olunmuş XVII əsrə aid “Naxçıvan” və XIX əsrə aid Qubanın “Hacıqayıb” xalçalarının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində Azərbaycan Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova çıxış edərək bildirib ki, tədbir Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində təşkil olunub. Festival günləri çərçivəsində Şamaxıda və paytaxtımızın müxtəlif yerlərində - sərgi salonlarında, muzeylərdə, açıq səma altında, konsert zallarında bir-birindən fərqli və maraqlı proqramlar təşkil olunur. Festivalda iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən qonaqlar gəliblər. Azərbaycan Xalça Muzeyinin də bu festivalda yaxından iştirak etməsi məmnunluq hissi doğurur.

Xalça Muzeyinə hədiyyə olunan iki yeni eksponat barədə məlumat verən Ş.Məlikova bildirib ki, hər iki xalça Azərbaycan Xalça Muzeyinin “Nadir Azərbaycan xalça nümunələrinin tarixi Vətəninə qaytarılması” layihəsi çərçivəsində muzeyə hədiyyə olunub. XVII əsrə aid “Naxçıvan” xalçası Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəyə qaytarılaraq muzeyin kolleksiyasının incisinə çevrilib. Xalçanın ara sahəsi mücərrəd formalı “Çələbi” gölü və irihəcmli palmetta elementləri ilə bəzədilib. Naxışlarda ağ, qızılı, göy və digər rənglərin harmonik vəhdəti kompozisiyaya xüsusi gözəllik verir. Xalçanın iri ölçüsü, yüksək peşəkarlıqla yaradılmış kompozisiyası və rənglərin harmoniyası onun böyük karxanalarda xüsusi sifarişlə toxunduğunu sübut edir.

Qeyd olunub ki, bu sənət nümunəsi Heydər Əliyev Fondunun muzeyə hədiyyə etdiyi üçüncü eksponatdır. Fond bundan öncə muzeyə XVII əsrə aid Qarabağın “Xətai” xalçasını və XVIII əsrə aid tikmə hədiyyə edib.

Ş.Məlikova deyib ki, XIX əsrə aid Qubanın “Hacıqayıb” xalçasını isə Azərbaycan Xalça Muzeyinə italiyalı kolleksioner Mirko Kattai hədiyyə edib. Quba-Şirvan növlü xalçaların qədim nümunələrindən olan “Hacıqayıb” Qubanın eyni adlı kəndinin adı ilə bağlıdır. Xalçanın ara sahəsini “kilimgülü”, “kətəbə” və “burma” elementləri təşkil edir. “Şamdan” və “əjdaha” elementli haşiyə qurşağı xalçanın yalnız yuxarı tərəfini təşkil etdiyindən kompozisiyaya xüsusi özəllik verir. Xalçanın rəng çalarları ahəngdar və sabitdir.

Direktorun verdiyi məlumata görə, muzeyin “Xovlu xalçalar” kolleksiyası 2018-ci il ərzində bu sənət nümunələri daxil olmaqla 6 nadir xalça ilə zənginləşib.

Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Fikrət Babayev bildirib ki, muzeyin milli-mədəni sərvətlərimizin ölkəmizə qaytarılması istiqamətində həyata keçirdiyi layihə təqdirəlayiqdir. Xalça Muzeyinin məqsədyönlü tədbirləri nəticəsində muzeyə bir neçə əsr bundan əvvələ aid unikal xalçalar gətirilib və burada nümayiş olunur. **“Bu iş daha da genişləndirilməli, dünyanın müxtəlif kolleksiyalarında mövcud olan Azərbaycan xalçaları ölkəmizə gətirilərək sərgilənməlidir. Bu işdə əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm”,** - deyə F.Babayev qeyd edib.

İtaliyalı kolleksioner Mirko Kattai Xalça Muzeyinə təqdim etdiyi xalçanın artıq etibarlı əllərdə olmasından məmnunluğunu bildirib, muzeyin əməkdaşlarına uğurlar arzulayıb.

Sonra tədbir iştirakçıları muzeyin yeni eksponatları ilə tanış olublar.

Tədbir “Muğam və Ruh” qrupu və Azərbaycan Milli Konservatoriyasının “Əsrlərin sədası” qədim musiqi alətləri ansamblının çıxışları ilə davam edib.

# Azərbaycan güclü müdafiə sənayesi yaradıb

*"ADEX-2018" sərgisi Azərbaycanın müdafiə sənayesi sahəsində əldə etdiyi nailiyyətlərin tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir*




















Son 15 ildə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə edilib. Ölkəmizdə ordu quruculuğu sahəsində də sistemli və kompleks işlər aparılır. Qeyd edək ki, müharibə şəraitində yaşayan bir ölkə kimi Azərbaycanın güclü orduya, təkmilləşmiş hərbi sistemə, inkişaf etmiş müdafiə sənayesinə malik olması böyük önəm kəsb edir. Və ölkəmizdə çox sürətlə, həmçinin yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Bu illər ərzində hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti yüksək səviyyədə olub, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsi ardıcıl şəkildə həyata keçirilib. Beləliklə, görülən bütün bu işlər nəticəsində Azərbaycan Ordusu yüksək döyüş hazırlığına nail olub və qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadirdir.

### ÖLKƏMİZDƏ MÜDAFİƏ SƏNAYESİNİN İNKİŞAFI DİQQƏT MƏRKƏZİNDƏDİR

Bunlarla yanaşı, ölkəmizdə müdafiə sənayesinin inkişafı da xüsusi diqqət mərkəzindədir. Prezident İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli Sərəncamına əsasən, Müdafiə Sənayesi Nazirliyinin (MSN) yaradılması ilə ölkəmizdə ordu quruculuğunda keyfiyyətcə yeni mərhələ başlayıb. Qeyd etmək lazımdır ki, Müdafiə Sənayesi Nazirliyinin fəaliyyət istiqamətlərinə, əsas etibarilə, müdafiə sənayesi sahəsində vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini, habelə müdafiə sənayesi sahəsinin inkişafını, dövlət sifarişi əsasında hərbi texnika, silah, mühəndis texnikası, ehtiyat hissələri, döyüş sursatları və digər müdafiə təyinatlı məhsullar üzrə Dövlət Müdafiə Sifarişi Proqramına uyğun olaraq müdafiə təyinatlı məhsulların yaradılmasını, istehsalını, təkmilləşdirilməsini, təmirini, utilizasiyasını, idxal-ixracını təmin etmək daxildir. Nazirliyin nəzdində olan müəssisələrdə istehsal olunan yüzlərlə adda məhsul özünün yüksək keyfiyyəti ilə müasir tələblərə cavab verir. Məhz bunun nəticəsidir ki, ordumuzun müxtəlif döyüş texnikalarına olan tələbatının xeyli hissəsi daxili istehsal hesabına təmin edilir. Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin tabeliyinə verilən müəssisələrdə qısa müddətdə yenidənqurma işləri aparılıb, son illərdə həmin müəssisələrin maşın və avadanlıq parkı yenilənib, bu məqsədlə dünyanın inkişaf etmiş ölkələrindən ən son texnoloji avadanlıqlar alınaraq quraşdırılıb. Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə sıx əməkdaşlıq qurub. 2009-cu ildən başlayaraq nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sərgilərində də nümayiş olunur.

Bütövlükdə, ölkəmizdə hərbi-sənaye kompleksinə aid müəssisələr uğurla fəaliyyət göstərir. Bu müəssisələrdə aviasiya, naviqasiya, cihazqayırma və digər hərbi təyinatlı məhsulların istehsalı ildən-ilə genişləndirilir, eyni zamanda, ən yeni nəsil müasir texnologiyalar istehsalatda tətbiq olunur. Beləliklə, ilk növbədə, Azərbaycan Silahlı Qüvvələrinin hərbi-texniki təchizatına xidmət edən müdafiə sənayesinin kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsi ölkənin müdafiə qabiliyyətini artırır. Hərbi məhsulların satışı üzrə genişləndirilən xarici əməkdaşlıq isə əlavə iqtisadi dividendlər gətirir, ölkənin xarici bazarlardakı mövqeyini gücləndirir. Ümumiyyətlə, milli hərbi-sənaye kompleksində buraxılan müxtəlif növ döyüş texnikası qısa müddətdə xarici bazarlara yol tapıb ki, bu da olduqca mühüm əhəmiyyət daşıyır.

Beləliklə, bu gün ölkəmiz müasir və keyfiyyətli hərbi təyinatlı məhsulların istehsalçısı kimi dünyada tanınır. İstehsal edilən rəqabətədavamlı məhsullar Silahlı Qüvvələrimizlə yanaşı, bir sıra xarici ölkələrin ordularının da silahlanmasına qəbul edilir.

### "ADEX-2018" SƏRGİSİNƏ YÜKSƏK BEYNƏLXALQ MARAQ VAR

Yeri gəlmişkən, son illərdə ölkəmizin hərbi-sənaye kompleksinə daxil olan müəssisələrdə buraxılan müxtəlif növ döyüş texnikası beynəlxalq sərgilərdə uğurla nümayiş etdirilir ki, bu da respublikamızda hazırlanan hərbi təyinatlı məhsulların geniş rəqabət imkanlarına malik olmasının təsdiqidir. Öz növbəsində, Bakıda keçirilən "ADEX-2018" sərgisi də Azərbaycanın müdafiə sənayesi kompleksinin gücünü aydın şəkildə əks etdirir. Ümumiyyətlə, Müdafiə Sənayesi Nazirliyi indiyədək bir çox beynəlxalq sərgidə öz məhsullarını təqdim edib. Artıq üçüncü dəfədir ki, nazirliyin təşəbbüsü ilə ölkəmizdə beynəlxalq müdafiə sərgisi keçirilib. Bu sərgi dünyanın sürətlə inkişaf edən bazarlarında strateji əməkdaşlıqların inkişaf etdirilməsi istiqamətində əlverişli platforma rolunu oynayır.

Məlumat üçün bildirək ki, "ADEX-2018" sərgisində Azərbaycan, Belarus, Çin, Fransa, İsrail, Pakistan, İran, Rusiya, Serbiya, Türkiyə və Ukraynanın aparıcı şirkətləri 11 stendlə təmsil olunub. Şirkətlərin sayına görə, ilk dördlüyə Türkiyə, Rusiya, İsrail və Belarus daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib, ümumilikdə isə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edib. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki istehsalat birlikləri və zavodlar, o cümlədən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi (ANAMA) sərginin fəal iştirakçıları olublar.

"ADEX-2018" sərgisində hava hücumundan müdafiə və raket əleyhinə müdafiə sistemləri, hərbi gəmiqayırma, silah sistemlərinin hazırlanması və modernləşdirilməsi, hərbi-elmi tədqiqat, PUA sistemləri, robot-texniki kompleksləri, atıcı silahlar, döyüş sursatları və təchizatları, demilitarizasiya sistemləri, raket və artilleriya silahları, reaktiv yaylım atəşli sistem, optik-elektron və lazer texnikası, zirehli texnika, sualtı qayıqlar və digər müasir silah, texnika və avadanlıqlar təqdim olunub. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi sərgiyə 270-dən artıq məmulatla qatılıb. Nazirliyin pavilyonunda öz müəssisələrində yaradılan və istehsal olunan ən son silah və hərbi texnikalar nümayiş etdirilib.

Ümumiyyətlə, "ADEX" sərgisi dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradır. Bu sərgi ən son silah nümunələrinin nümayiş olunması və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün artıq çox mühüm və əlverişli platformaya çevrilib. Ən əsası, beynəlxalq nümayəndə heyətləri və şirkətlər tərəfindən "ADEX" sərgisinə göstərilən maraq Azərbaycanın regionda mühüm strateji əhəmiyyətini bir daha təsdiqləyir. Bütövlükdə, regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından ibarət olan genişmiqyaslı bu tədbir müasir silah və avadanlıqların nümayişi, həmçinin Azərbaycanın müdafiə sənayesi sahəsində əldə etdiyi nailiyyətlərin tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Azərbaycan dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir

*Sentyabrın 26-da "Azerspace-2" peykinin orbitə çıxarılması respublikamızın növbəti qələbəsi və uğurudur*




Xəbər verildiyi kimi, cari il sentyabrın 26-da dünyaya hər cəhətdən nümunəvi inkişaf modeli təqdim edən Azərbaycan özünün sayca üçüncü peykini - "Azerspace-2"ni orbitə çıxarıb. "Azerspace-2" telekommunikasiya peyki Bakı vaxtı ilə saat 2:38 radələrində Fransa Qvianasında yerləşən kosmodromdan - Qviana Kosmik Mərkəzindən orbitə buraxılıb. "Azərkosmos"dan bildirilib ki, yeni peykin istismarı üçün Bakıda və Naxçıvan Muxtar Respublikasında yerüstü infrastruktur yenilənib. Orbitdəki sınaq prosesləri və yekun orbital mövqeyə yerləşdirilməsi uğurla başa çatdıqdan sonra peykin idarəçiliyi istehsalçı şirkət tərəfindən "Azərkosmos" ASC-yə təhvil veriləcək ki, bundan sonra peyk kommersiya fəaliyyətinə başlamaq üçün tam hazır vəziyyətdə olacaq.

### "AZERSPACE-2" PEYKİNİN ORBİTƏ ÇIXARILMASI AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ BÖYÜK TÖHFƏDİR

Məlum olduğu kimi, ölkəmiz innovativ əsaslı, elm tutumlu sənaye quruculuğu siyasəti həyata keçirir. Qısa müstəqillik tarixində ölkəmizin dünya kosmos ailəsinin tərkibinə daxil olması və burada öz mövqelərini getdikcə möhkəmləndirməsi son dərəcə qürurverici haldır. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında", "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında, müvafiq sərəncamlar Azərbaycanın dünya kosmik ailəsinə inamlı inteqrasiyasını təmin edib.

Ölkəmizdə kosmik sənayenin inkişafı dövlət başçısının 3 may 2010-cu il tarixli Sərəncamına əsasən, "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yaradılması ilə keyfiyyətcə yeni mərhələyə keçib. Ötən dövrdə ASC respublikamızda kosmik sənayeyə aid milli məhsul istehsalını uğurla təmin edib və fəaliyyət sferasını genişləndirib. 2013-cü il fevralın 8-də "Azerspace-1" peykinin uğurla orbitə çıxarılması müstəqil Azərbaycanın tarixində çox əlamətdar hadisə idi. Orbitdə istismar müddəti ən azı 15 il təşkil edəcək "Azerspace-1" peyki teleradio yayımı və telekommunikasiya xidmətlərinin göstərilməsi, eləcə də korporativ və hökumət müştərilərinin tələblərinə cavab verən keyfiyyətli və dayanıqlı rabitə platformalarının təmin edilməsi üçün nəzərdə tutulub.

"Azerspace-1"in orbitə çıxarılmasından cəmi bir il sonra Azərbaycan artıq ikinci peykə malik idi. Belə ki, "BakuTel-2014" XX Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycanın milli peyk operatoru "Azərkosmos" ASC və Fransanın "Airbus Defence and Space" şirkəti arasında imzalanan müqaviləyə əsasən, 2014-cü ilin iyununda orbitə çıxarılan və "Azersky" adlandırılan "Spot 7" peyki "Azərkosmos" ASC-nin mülkiyyətinə keçib və onun kommersiya fəaliyyətinə start verilib.

Və budur, artıq Azərbaycanın sayca üçüncü peyki də orbitdədir. Prezident İlham Əliyev "Azerspace-2" peykinin orbitə buraxılması münasibətilə xalqımıza ünvanladığı təbrikində sayca üçüncü peykin orbitə çıxarılmasını ölkəmizin növbəti qələbəsi, dövlətimizin növbəti uğuru kimi səciyyələndirib. **"Son beş il ərzində Azərbaycan orbitə 3 peyk çıxara bilmişdir. Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir",** - deyə dövlət başçısı vurğulayıb.

"Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək.

Geniş texniki parametrlərə malik peykin uğurla orbitə buraxılması müstəqil Azərbaycanın siyasətini təzahür etdirir və ölkəmizin gücünü, qüdrətini göstərir. Belə genişmiqyaslı kosmik layihələri ancaq Azərbaycan kimi güclü dövlət reallaşdıra bilər. Yeri gəlmişkən, "Azerspace-2" əlamətdar tarixlər ərəfəsində orbitə buraxılıb. Məlumdur ki, 2018-ci ildə respublikamızda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi qeyd olunur. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. Eyni zamanda, oktyabrda Azərbaycanın müstəqilliyinin bərpasının 27-ci ildönümü tamam olacaq. Bəhs olunan əlamətdar tarixlər münasibətilə respublikamızda silsilə tədbirlər həyata keçirilir. Bu baxımdan, "Azerspace-2" peykinin orbitə çıxarılması Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və müstəqilliyimizin bərpasının 27-ci ildönümünə böyük töhfədir.

### AZƏRBAYCAN TELEKOMMUNİKASİYA SAHƏSİNDƏ XARİCİ TƏRƏFDAŞLARDAN ASILILIĞINI TAM ARADAN QALDIRIB

Aparılan uğurlu siyasət sayəsində Azərbaycan beynəlxalq birliyə uğurla inteqrasiya edir. Ölkəmizin moderatorluğu ilə reallaşdırılan enerji və nəqliyyat layihələri regional və qlobal əməkdaşlığın dərinləşməsinə sanballı töhfələr kimi dəyərləndirilir. Son 15 ildə milli iqtisadiyyatımıza yönəldilən 250 milyard dollardan artıq investisiyaların təxminən yarısını xarici sərmayələr təşkil edir. Paralel şəkildə respublikamız dünyanın ayrı-ayrı ölkələrində genişmiqyaslı investisiya siyasəti həyata keçirir.

Son illərdə kosmik sənaye müstəqil Azərbaycanın beynəlxalq əməkdaşlığında mühüm bir sahəyə çevrilib. Respublikamız kosmik sənaye sahəsində beynəlxalq əməkdaşlığını getdikcə dərinləşdirir. Qeyd etmək yerinə düşər ki, "Azerspace-1"in resurslarının yalnız 20 faizi Azərbaycanın tələbatını ödəmək üçün istifadə edilir, qalan 80 faizi isə dünya bazarlarına ixrac olunur. "Azersky" peykinin gəlirlərinin isə 98 faizi xarici bazarlarda formalaşır. "Azərkosmos"un hazırda dünyanın 25-ə yaxın ölkəsində 100-dən çox özəl və dövlət şirkətlərinin daxil olduğu sabit müştəri bazası mövcuddur.

Mütəxəssislər bildirirlər ki, sentyabrın 26-da orbitə çıxarılan "Azerspace-2" peyki ölkəmizin beynəlxalq əməkdaşlığının dərinləşməsinə yeni töhfələr verəcək. Yeni peyk "Azərkosmos"un xidmət spektrinin və fəaliyyət coğrafiyasının genişləndirilməsi ilə yanaşı, həm də birinci telekommunikasiya peyki - "Azerspace-1" peykinin orbitdəki ehtiyatı olacaq. Bu da öz növbəsində "Azərkosmos"a bu günədək ehtiyat peykin olmaması səbəbindən iştirak edə bilmədiyi irihəcmli beynəlxalq tenderlərdə iştirak etmək imkanı yaradacaq. Qeyd edək ki, "Azerspace-2" peyki hələ orbitə buraxılmamış artıq onun tutumlarının 46 faizi dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan "Intelsat" şirkətinə satılıb.

Orbitə çıxarılan peyklər ölkəmizin beynəlxalq əməkdaşlığının dərinləşməsində, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafında mühüm rol oynamaqla yanaşı, həm də milli təhlükəsizliyin, o cümlədən də informasiya təhlükəsizliyinin təmin edilməsi baxımından çox böyük əhəmiyyət daşıyır. Bu peyklər Azərbaycan telekanallarının dünyaya yayılmasında önəmli rol oynayır. İnamla demək mümkündür ki, artıq Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan qaldırıb. Bu gün "Azərkosmos"un mülkiyyətində olan "Azersky" müşahidə peyki dünyanın istənilən nöqtəsində baş verən hadisələri müntəzəm izləməyə imkan yaradır. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azersky" peykinin xüsusi rolu var. Ümumiyyətlə, peyklərin orbitə çıxarılması infrastruktur layihələrinin icrası və mövcud infrastrukturun qorunması baxımından böyük əhəmiyyətə malikdir.

### PEYKLƏRİN ORBİTƏ ÇIXARILMASI AZƏRBAYCANDA KOSMİK SƏNAYENİN İNKİŞAFINDA VƏ BU SAHƏDƏ KADR HAZIRLIĞINDA MÜHÜM ROL OYNAYIR

Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bu gün qürur hissi ilə deyə bilərik ki, "Azərkosmos" yüksək rəqabət qabiliyyətinə malik şirkətə çevrilib. "Azərkosmos" ASC müştərilərinə hər zaman yüksəkkeyfiyyətli xidmətlər göstərməyi hədəfləyib. Qurum bu məqsədlə fəaliyyətini beynəlxalq standartlar əsasında quraraq keyfiyyətli idarəetmə siyasətinin formalaşdırılması istiqamətində iş aparır. "Azərkosmos"un yerləşdiyi ərazidə milli peyklərə effektiv nəzarəti həyata keçirmək üçün bütün imkanlar yaradılıb.

Digər tərəfdən, kosmik sənaye sahəsində milli kadrların yetişdirilməsi də çox önəmli məsələdir. Prezident İlham Əliyev peyklərin milli kadrlar tərəfindən idarə edilməsindən məmnunluğunu bildirərək deyib: **"Eyni zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir".**

Qeyd edək ki, ötən dövrdə "Azərkosmos" ASC-də yüksəkixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirilib. Texniki heyət mərhələli şəkildə ABŞ-da, Malayziyada və digər ölkələrdə müxtəlif kurs və təlimlərdə iştirak edərək öz bilik səviyyəsini davamlı şəkildə artırıb.

**Mübariz ABDULLAYEV**

# Ukrayna Analitik Mərkəzinin rəhbəri: Yeni peykin orbitə buraxılması Azərbaycanın kosmik sahədə güc kimi tanınması deməkdir



Hər bir ölkə öz maliyyə hesabına orbitə peyk buraxa bilmir. Azərbaycanın üçüncü peyki olan "Azerspace-2" telekommunikasiya peykinin orbitə buraxılması Azərbaycanın kosmik sahədə güc kimi tanınması deməkdir. Bu fikri AZƏRTAC-a məxsusi açıqlamasında Ukrayna Analitik Mərkəzinin rəhbəri Aleksandr Oxrimenko deyib.

Onun sözlərinə görə, Azərbaycan peyk xidmətlərindən iqtisadi dividendlər əldə edə bilər. Çünki peyki olmayan ölkələr bu xidmətlərdən istifadə edə bilər.

A.Oxrimenko bildirib ki, Azərbaycanın öz peyklərinə sahib olması ölkənin dünyada təbliğatına da böyük təsir edir.

Qeyd edək ki, Azərbaycanın "Azerspace-2" peyki sentyabrın 26-da Fransa Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxılıb. Bununla da son 5 ildə Azərbaycan orbitə 3 peyk çıxara bilib.

# İcbari sığorta ilə bağlı əməkdaşlıq haqqında çoxtərəfli memorandum imzalanıb



İcbari sığorta ilə bağlı əməkdaşlıq haqqında çoxtərəfli memorandum imzalanıb.

AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, İcbari Sığorta Bürosu, "PAŞA Həyat Sığorta", "Atəşgah Həyat Sığorta" və "Qala Həyat Sığorta" açıq səhmdar cəmiyyətləri arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Memorandumda istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsinin bağlanmasının təmin edilməsi, icbari sığorta müqaviləsi bağlamayan işəgötürənlərin məsuliyyətinin artırılması, istehsalatda bədbəxt hadisələrin və peşə xəstəliklərinin azaldılması üzrə qabaqlayıcı tədbirlərin müəyyənləşdirilməsi əksini tapıb.

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, Prezident İlham Əliyevin yüksək səviyyədə davam etdirdiyi milli inkişaf strategiyasının başlıca məqsədi vətəndaş firavanlığına, sosial rifah halının yaxşılaşmasına nail olmaqdır. Nazir qeyd edib ki, son 15 ildə əhalinin gəlirlərində 8,6 dəfə artım olub, orta aylıq əməkhaqqı 528,2 manata çatıb. Son 15 ildə ölkəmizdə yoxsulluq səviyyəsinin 5 faizə endiyini deyən nazir bunun qlobal yoxsulluq səviyyəsindən 3 dəfə aşağı olduğunu vurğulayıb.

Nazir qeyd edib ki, son dövrdə Prezident tərəfindən əmək və sosial müdafiə sahəsi ilə bağlı mühüm fərman və sərəncamlar imzalanmaqla, sosial müdafiə tədbirlərinin gücləndirilməsində yeni addımların atılmasına, digər tərəfdən əmək və sosial müdafiə sahələrində idarəetmənin təkmilləşdirilməsində ciddi irəliləyişlərə imkan yaradılıb. Aparılan sistemli islahatların mühüm istiqamətlərindən biri də əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində dövlət xidmətlərinin elektron texnologiyalar üzərində tam şəffaf və operativ şəkildə qurulması, həmin sahələrdə innovativ idarəetmənin təmin edilməsi, korrupsiya, sui-istifadə və süründürməçilik hallarının qarşısının alınmasıdır.

S.Babayev Prezidentin 2018-ci il 9 avqust tarixli 229 nömrəli Fərmanının icrası olaraq, nazirliyin tabeliyində DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyinin və mərkəzlərinin yaradılması, habelə dövlətimizin başçısının 2018-ci il 5 sentyabr tarixli 258 nömrəli Fərmanına əsasən, əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi istiqamətində görülən işlər barədə də məlumat verib. Sahil Babayev qeyd edib ki, nazirliyin informasiya sistemləri əsasında "Mərkəzləşdirilmiş elektron informasiya sistemi"nin, müvafiq fəaliyyət istiqamətləri üzrə xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsi üçün "e-sosial" internet portalının yaradılması işləri davam etdirilir.



Yeni qüvvəyə minmiş "Məşğulluq haqqında" Qanun barədə də məlumat verən əmək və əhalinin sosial müdafiəsi naziri vurğulayıb ki, bu Qanun əhalinin məşğulluğunun təminatı, işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsi sahəsində aparılan dövlət siyasətinin və məşğulluq xidmətlərinin təkmilləşməsinə, bu sahədə innovativ yanaşmaların tətbiqi ilə səmərəli iş mexanizmlərinin formalaşdırılmasına, aktiv əmək bazarı proqramlarının genişləndirilməsinə xidmət edir. Nazir əmək bazarının daim müşahidəsi və monitorinqinin aparılması, strateji məşğulluq sahələri və kadr tələbatı üzrə orta, eləcə də uzunmüddətli dövrü əhatə edən proqnozlaşdırma məqsədilə Milli Observatoriyanın yaradılacağını da bildirib.

S.Babayev əməyin mühafizəsi sahəsində fəaliyyətin əlaqələndirilməsini təmin etməklə, bu sahədə profilaktik tədbirlərin həyata keçirilməsinin, əməyin mühafizəsi normaları, standartları və qaydalarının hazırlanmasının dəstəklənməsi məqsədilə nazirliyin tabeliyində Dövlət Əməyin Mühafizəsi Fondunun da yaradılacağını qeyd edib.

Nazir imzalanan memorandumun xüsusi əhəmiyyət daşıdığını, sənəddə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsinin bağlanmasının təmin edilməsi, icbari sığorta müqaviləsi bağlamayan işəgötürənlərin məsuliyyətinin artırılması, istehsalatda bədbəxt hadisələrin və peşə xəstəliklərinin azaldılması üzrə qabaqlayıcı tədbirlərin müəyyən edilməsi və digər halların əks olunduğunu deyib.

Maliyyə Bazarlarına Nəzarət Palatasının baş icraçı direktoru İbrahim Alışov icbari sığorta sinfi üzrə sığorta haqlarının toplanılmasında davamlı artım dinamikasının müşahidə olunduğunu deyib. Bildirib ki, qeyd olunan icbari sığorta sinfi üzrə 2017-ci ildə 33.2 milyon manat sığorta haqqı toplanıb və 4.3 milyon manat sığorta ödənişi həyata keçirilib. 2018-ci ilin birinci yarımilliyi üzrə isə 21.3 milyon manat sığorta haqqı toplanıb və 1.7 milyon manat sığorta ödənişi edilib.

İ.Alışov qeyd edib ki, ölkədə muzdla çalışan 3.3 milyon əhalinin 1.6 milyon hissəsinin sığortalanmasını nəzərə alaraq, informasiya sistemlərinin inteqrasiyası nəticəsində sığorta penetrasiyasının kəskin artması və sığortaçılar tərəfindən yığılan sığorta haqlarının həcminin daha da artacağı gözlənilir. Bununla yanaşı, icbari sığorta müqaviləsinin rəsmiləşdirilməsi üçün lazım olan məlumatların elektron formatda onlayn rejimində əldə olunması nəticəsində işəgötürən tərəfdən təqdim olunan məlumatların dürüstlüyü, sığortalanma prosesinin tam şəffaf və çevik həyata keçirilməsi, eləcə də muzdla çalışan əhalinin bədbəxt hadisələrdən sığortalanması tam təmin ediləcək.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə sığorta sektorunun Azərbaycan iqtisadiyyatının sürətli inkişaf edən seqmentlərindən biri olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, hazırda Azərbaycanın investisiya imkanları və iqtisadiyyatının səmərəliliyi artmaqda davam edir və milli iqtisadiyyatın neft sektorundan asılılığının azalması ölkədə sığorta bazarının inkişafı üçün də əlverişli şərait yaradacaq. Z.Səmədzadə əlavə edib ki, tibbi və kənd təsərrüfatı sığortasının inkişafı ölkə üçün hazırda əsas prioritetlərdən biridir.

Qeyd edək ki, memorandumda informasiya ehtiyatları üzrə məlumat bazalarının inteqrasiyası, müəyyən olunmuş qaydada sığorta hadisələrinin araşdırılması, istehsalatda bədbəxt hadisə baş verdiyi hallarda araşdırma materialları üzrə məlumatların əldə edilməsi, sığorta hadisələrinin baş verməsinin qarşısının alınması ilə bağlı tövsiyələrin verilməsi, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta sahəsində normativ-hüquqi aktların layihələrinin hazırlanması istiqamətləri üzrə də əməkdaşlıq sahələri müəyyən edilib.

# Çində ilk "Azərbaycan Ticarət Evi" fəaliyyətə başlayıb






Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığına əsasən, Azərbaycanda istehsal edilən məhsulların ixracının təşviqi və genişləndirilməsi, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması, yerli məhsulların satışı sahəsində fəaliyyətin bilavasitə həmin ölkələrdə təşkili və əlaqələndirilməsi məqsədilə xarici ölkələrdə ticarət evlərinin açılması prosesi davam edir.

AZƏRTAC xəbər verir ki, sentyabrın 28-də Lucou şəhərində keçirilən "Çin Lucou Cənub-Qərb məhsullar sərgisi" çərçivəsində Çində ilk "Azərbaycan Ticarət Evi"nin açılışı olub.

Lucou şəhər rəhbərliyinin, Çinin ticarət və biznes qurumlarının nümayəndələrinin, iş adamlarının, sərgiyə qatılan xarici ölkələrin təmsilçilərinin iştirak etdikləri tədbirdə Çin Ərzaq Məhsullarının İxracı və İdxalı üzrə Ticarət Palatasının vitse-prezidenti Su Siaoxu qeyd edib ki, ölkələrimiz arasında tarixən yaranmış münasibətlər hazırda müxtəlif istiqamətlər üzrə uğurla inkişaf edir. Çində "Azərbaycan Ticarət Evi" iqtisadi-ticari əməkdaşlığımızda yeni mərhələ olmaqla yanaşı, Azərbaycan məhsullarının Çin alıcılarına tanıdılması baxımından vacib rol oynayacaq.

Ölkəmizin Çin Xalq Respublikasındakı səfiri Əkrəm Zeynallı bildirib ki, Azərbaycan Çin ilə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir və ikitərəfli əlaqələrin bütün sahələr üzrə dərinləşməsində maraqlıdır. Hazırkı Azərbaycan-Çin əlaqələrinin dostluq və qarşılıqlı etimada əsaslanan, yüksək inkişaf dinamikası ilə seçilən çoxşaxəli ciddi tərəfdaşlıq münasibətləri kimi səciyyələndirildiyini diqqətə çatdıran diplomat bildirib ki, dövlət başçıları İlham Əliyev və Si Cinpin arasında mövcud olan siyasi dialoq və ikitərəfli əlaqələrimizlə bağlı əldə etdikləri razılaşmalar bütün sahələrdə, xüsusilə də iqtisadi sahədə əlaqələrin dərinləşməsi üçün möhkəm özül rolunu oynayır.

Səfir Ə.Zeynallı "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycan-Çin əlaqələrinin inkişafında yeni imkanlar açdığını, bu xüsusda Azərbaycanın Çinin vilayətləri ilə də əlaqələrinin inkişaf etdiyini diqqətə çatdırıb. Siçuan vilayətinin Lucou şəhərindəki Azad Ticarət Zonasında "Azərbaycan Ticarət Evi"nin açılması bunun bariz nümunəsidir. Bu ticarət evi Azərbaycan məhsullarını təqdim etməklə yanaşı, ölkəmizin iqtisadi potensialı, turizm və nəqliyyat-logistika imkanlarına dair məlumatların Lucouda geniş yayılmasına imkan yaradacaq.

Sonra mərasim iştirakçıları "Azərbaycan Ticarət Evi" ilə tanış olublar.

Qeyd edək ki, Yancı çayının üzərində yerləşən və liman şəhəri olan Lucouda açılan "Azərbaycan Ticarət Evi"nin ümumi sahəsi 600 kvadratmetrdir. İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanın Çindəki səfirliyinin və ticarət nümayəndəliyinin, Lucou şəhər hakimiyyətinin və "Eastern Allfriends" şirkətinin təşkilatçılığı ilə açılan "Azərbaycan Ticarət Evi"ndə ölkəmizdə istehsal olunan ixracyönümlü və rəqabətqabiliyyətli məhsullar, o cümlədən müxtəlif növ ərzaq və qeyri-ərzaq məhsulları, meyvə-tərəvəz və onlardan emal olunmuş məhsullar (meyvə şirələri, kompotlar, konservlər, mürəbbələr, turşular, bitki yağları), çay, mineral sular, spirtli içkilər və s. nümayiş olunur. Azərbaycan iri memarlıq nümunələrinin elementləri əsasında dizayn edilmiş ticarət evində məhsullarımızın sərgisi, topdan və pərakəndə satışı, habelə dequstasiyası həyata keçiriləcək. Bundan başqa, ticarət evi Azərbaycan məhsullarının Çin bazarında daha çox tanıdılmasına, ixracın təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcəkdir.

Ticarət evini ziyarət edənlər müvafiq stendlər, fotoşəkillər vasitəsilə Azərbaycanın investisiya imkanlarına, biznes mühitinə, nəqliyyat-logistika imkanlarına, turizm və kənd təsərrüfatı potensialına dair geniş məlumat əldə edəcəklər. Azərbaycan xalqının əsrlər boyunca yaratdığı mədəni irsin də təbliğ olunduğu ticarət evində nümayiş edilən eksponatlar, xalça nümunələri, milli geyimlər, müxtəlif nəşrlər, milli suvenirlər xalqımızın zəngin mədəniyyəti haqqında təsəvvür yaradır.

Mərasim iştirakçıları Azərbaycanın müstəqillik illərində qazandığı uğurlara həsr olunan filmə baxıblar.

Ticarət evinin açılması ilə paralel olaraq, Çinin qərb hissəsində 34 marketi əhatə edən "EAF" şəbəkəsində "Made in Azerbaijan" brendi ilə istehsal olunan şərab və nar şirələrinin satışına başlanılıb.

Bu il 6-cı dəfə keçirilən "Çin Lucou Cənub-Qərb məhsullar sərgisi"ndə 16 ölkə, o cümlədən Azərbaycan fəxri qonaq qismində təmsil olunub.

Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallı sərginin açılış mərasimində çıxış edərək, iki ölkə arasında münasibətlərin inkişafından, Azərbaycanın Çinin vilayətləri ilə iqtisadi, mədəni sahədə əməkdaşlığından danışıb.

Sərgidə fəaliyyət göstərən milli pavilyonda "Made in Azerbaijan" brendi ilə istehsal olunan şərab növləri nümayiş olunub.

Qeyd etmək lazımdır ki, 5,5 milyon əhalisi olan Lucou şəhəri aid olduğu Siçuan, habelə Yunnan və Quycou vilayətlərinin, Çinin ən böyük bələdiyyəsi olan Çunçin şəhərinin arasında yerləşməklə, əhəmiyyətli nəqliyyat-ticarət qovşağı hesab olunur.

# Bakıda iordaniyalı tarixçinin "Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq hüquq" adlı kitabının təqdimatı olub



Sentyabrın 28-də İslam Əməkdaşlıq Təşkilatına üzv olan Dövlətlərin Jurnalistlər Assosiasiyasının təşkilatçılığı ilə "Qafqazda regional təhlükəsizliyə ikili yanaşma və İslam dəyərləri əleyhinə təxribatlara qarşı İslam ölkələri mediası ilə əlaqələrin gücləndirilməsi" mövzusunda "dəyirmi masa" və iordaniyalı tarixçi Ömər Məhəmməd Nəzzal əl-Armutinin müəllifi olduğu "Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq hüquq" adlı kitabın təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən professor Rafiq Əliyev bu gün dünyada beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasından danışıb. O deyib ki, nəhəng güc sahibləri olan bir neçə ölkə beynəlxalq normalara məhəl qoymur və nəticədə, qanlı müharibələr, vətəndaş qarşıdurmaları baş verir. İkili standartlar artıq beynəlxalq münasibətlərdə və hətta beynəlxalq hüquqda bir normaya çevrilməkdədir. Təəssüf ki, bu prosesin yayılmasında kütləvi informasiya vasitələrinin də rolu var. Bəzi KİV-lər yol verilən pozuntulara bəraət qazandırır, ictimaiyyəti yalana, ikili standartlara yeganə düzgün hərəkət kimi baxmağa inandırmağa çalışır. R.Əliyev vurğulayıb ki, bu kimi xoşagəlməz halların qarşısını almaqda İslam Əməkdaşlıq Təşkilatına üzv olan Dövlətlərin Jurnalistlər Assosiasiyasının üzvləri mühüm rol oynaya bilərlər.

Tədbirdə İslam Əməkdaşlıq Təşkilatına üzv olan Dövlətlərin Jurnalistlər Assosiasiyasının sədri Fazil Abbasov çıxış edərək bildirib ki, Azərbaycan dünyada İslam həmrəyliyinə mühüm töhfələr verir. Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etməsi və ölkəmizdə İslam Həmrəyliyi Oyunlarının keçirilməsi siyasi iradə tələb edirdi. Bu addımı ilə dövlətimizin başçısı İslam xalqlarının bir araya gətirilməsinə mühüm töhfə verdi.

F.Abbasov rəhbərlik etdiyi təşkilatın İslam dəyərlərinin qorunması və təbliği, İslam ölkələrinin jurnalistləri arasında həmrəyliyin təmin edilməsi istiqamətində gördüyü işlərdən danışıb. O bildirib ki, bu gün İslam dəyərlərinə qarşı aparılan çirkin kampaniyanın qarşısının alınmasında İslam ölkələrinin, o cümlədən İslam ölkələri jurnalistlərinin həmrəyliyinə böyük ehtiyac var.

İordaniyanın Azərbaycandakı səfiri Nassar İbrahim Məhəmməd əl-Habaşneh İslam dəyərləri əleyhinə təxribatlara qarşı İslam ölkələri mediası ilə əlaqələrin gücləndirilməsinin önəmli olduğunu söyləyib.

İordaniyalı tarixçi-yazıçı Ömər Məhəmməd Nəzzal əl-Armuti bildirib ki, Azərbaycanın İordaniyadakı səfirliyinin dəstəyi ilə ərəb dilində nəşr edilmiş "Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq hüquq" kitabının yazılmasında məqsəd ərəb ictimaiyyətinə münaqişə barədə ətraflı məlumat verməkdir. O əlavə edib ki, Dağlıq Qarabağda törədilən faciələr İslam dünyasına qarşı hücumların bir hissəsidir. Bu səbəbdən İslam birliyi daha da möhkəmləndirilməlidir.

"Dəyirmi masa" müzakirələrlə davam edib.

# Gəmiçiliyin 2016-2017-ci illəri əhatə edən Dayanıqlı inkişaf haqqında hesabatı dərc olunub




"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (AXDG) 2016-2017-ci illəri əhatə edən Dayanıqlı inkişaf haqqında hesabatı hazırlanıb.

AXDG-nin mətbuat katibliyindən AZƏRTAC-a bildirilib ki, dayanıqlı inkişaf haqqında hesabat iqtisadi, sosial və ekoloji sahələrdə fəaliyyətin nəticələrini tam şəffaf açıqlayır, keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, korporativ idarəetmə, personalın idarə olunması və sosial sahələrdə yerinə yetirilmiş işləri, əldə olunmuş nailiyyətləri əhatə edir.

Hesabat beynəlxalq Qlobal Hesabatlılıq Təşəbbüsünün (GRI) standartlarına uyğun hazırlanıb, "Ernst&Young" şirkəti tərəfindən audit olunaraq müsbət rəy alıb, şəffaflıq prinsiplərinə uyğun AXDG-nin rəsmi internet səhifəsində yerləşdirilib.

Qeyd olunub ki, AXDG fəaliyyətinin ilk günlərindən Azərbaycanda gəmiçilik sahəsində aparıcı beynəlxalq təcrübənin tətbiqinə, beynəlxalq standartların tələblərinə uyğun korporativ idarəetmə sisteminin təşkilinə ciddi diqqət ayırır və mütəmadi olaraq bu istiqamətdə işləyir.

Məhz gəmiçilik sahəsində şəffaflığın təmin edilməsi məqsədilə 2014-cü ildən beynəlxalq standartlara (MHBS və ya İFRS) uyğun tərtib edilmiş maliyyə hesabatları ilə yanaşı, AXDG-də ikiillik dövrü əhatə edən Dayanıqlı inkişaf haqqında hesabatların hazırlanmasına başlanılıb.

Gəmiçiliyin 2014-2015-ci illəri əhatə edən ilk Dayanıqlı inkişaf haqqında hesabatı 2016-cı ildə hazırlanıb, beynəlxalq audit şirkəti tərəfindən audit olunaraq müsbət rəy təqdim edilib və gəmiçiliyin rəsmi internet səhifəsində yerləşdirilib. Bununla da, AXDG Xəzər hövzəsində sosial korporativ məsuliyyəti üzrə fəaliyyətinə dair Dayanıqlı inkişaf haqqında hesabatını açıqlayan ilk gəmiçilik şirkəti olub.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

# Azərbaycanın regionlarında yol infrastrukturunun yenilənməsi ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər uğurla icra olunur

*Bölgələrdə avtomobil yollarının yenidən qurulması və tikintisi istiqamətində görülən işlər davamlı xarakter daşıyır*






Dinamik inkişafa malik olan Azərbaycanda qısa müddət ərzində müasir tələblərə cavab verən yol infrastrukturu yaradılıb. Ümumiyyətlə, respublikamızın yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncamları və göstərişlərinə əsasən Azərbaycanı digər ölkələrlə bağlayan əsas magistral yolların müasir səviyyəyə çatdırılması istiqamətində də mühüm layihələr həyata keçirilir. Yeri gəlmişkən, Prezident İlham Əliyev sentyabrın 4-də "Şəmkir rayonunun Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. 71 min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,8 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Eyni zamanda, Prezident İlham Əliyev sentyabrın 7-də "Hacıqabul rayonunun Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi (103 km)-Navahı-Pirsaat avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. On bir min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi (103 km)-Navahı-Pirsaat avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,8 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Dövlətimizin başçısı sentyabrın 8-də isə "Zərdab rayonunun Zərdab-Qaravəlli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Yeddi min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Zərdab-Qaravəlli avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin ilkin olaraq 1,32 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Bundan başqa, Prezident İlham Əliyev sentyabrın 10-da "Şabran rayonunun Şabran-Əmirxanlı-Qazbabalı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Altı min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Şabran-Əmirxanlı-Qazbabalı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,6 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Sentyabrın 11-də isə Prezident İlham Əliyev "Sabirabad rayonunun Dadaşbəyli-Çöl Ağaməmmədli-Xankeçən-Salmanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. İyirmi iki min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Dadaşbəyli-Çöl Ağaməmmədli-Xankeçən-Salmanlı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 15,1 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Eyni zamanda, Prezident İlham Əliyev sentyabrın 12-də "Oğuz rayonunun Bucaq-Muxas-Baş Daşağıl avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Dörd min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Bucaq-Muxas-Baş Daşağıl avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 9,4 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Sentyabrın 17-də isə dövlətimizin başçısı tərəfindən "Abşeron rayonunun Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi (16 km)-Masazır-Novxanı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalanıb. Yetmiş beş min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi (16 km)-Masazır-Novxanı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 1,8 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Eyni zamanda, Prezident İlham Əliyev sentyabrın 18-də "Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi (81 km)-Biləsuvar avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi (81 km)-Biləsuvar avtomobil yolunun yenidən qurulması məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 3 milyon manat ayrılıb.

Prezident İlham Əliyevin Quba rayonunun İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında imzaladığı Sərəncama əsasən, 6 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 10,8 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən beynəlxalq əhəmiyyətli yolların inşası ilə yanaşı, yeni kənd yollarının çəkilməsi, mövcud yolların yenidən qurularaq müasir səviyyəyə çatdırılması istiqamətində də çox mühüm layihələr icra olunub. Masallı rayonunun Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolunun yenidən qurulması da bu tədbirlər sırasındandır. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Masallı rayonunda əsaslı şəkildə yenidən qurulan Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolunun açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verib. Bildirilib ki, yolun yenidən qurulması Prezident İlham Əliyevin bu il iyulun 23-də imzaladığı Sərəncama əsasən aparılıb. 32 min nəfərin yaşadığı 22 yaşayış məntəqəsini birləşdirən Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolunun tikintisi üçün dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 7,5 milyon manat vəsait ayrılıb. Yolun ümumi uzunluğu 24,7 kilometrdir. Dördüncü texniki dərəcəyə aid ikizolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. Yolun yenidən qurulması layihəsi çərçivəsində genişmiqyaslı torpaq işləri görülüb, siqnal dirəkləri, yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol cizgi xətləri çəkilib. Dağlıq ərazidə yerləşən avtomobil yolunun tikintisi 22 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq. Sonra dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də, həmçinin Biləsuvar rayonunun Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov yolun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verib. Bildirilib ki, 20 mindən çox əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun uzunluğu 15,4 kilometrdir. Üçüncü və dördüncü texniki dərəcəyə uyğun tikilən yol iki hərəkət zolaqlıdır. Yolun inşası zamanı 26,1 min kubmetr torpaq işləri görülüb, 11,6 min kubmetr tikinti materialından və asfalt-beton örtüyündən istifadə edilib. Yol boyunca nişanlar və göstərici lövhələr quraşdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Masallı və Biləsuvar rayonlarına səfəri zamanı Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun açılışında iştirak edib. Yeni inşa edilən yollardan biri də Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yoludur. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi layihəsi haqqında məlumat verib. Bildirilib ki, mövcud Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun ümumi uzunluğu 243 kilometr idisə, yeni avtomobil yolunun ümumi uzunluğu 204 kilometrdir. Yol birinci texniki dərəcəyə aiddir. Hərəkət hissəsinin eni 15 metr, hərəkət zolaqlarının sayı 4 olan yol müasir səviyyədə və bütün tələblərə uyğun inşa olunub. Sifarişçisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi olan yolun podratçı şirkətləri Azərbaycanın "Evrascon-AzVirt" Birgə Müəssisəsi, Türkiyənin "Kolin İnşaat Sənaye Turizm və Ticarət", həmçinin "Özgün Yapı Sənaye və Ticarət", o cümlədən digər nüfuzlu xarici şirkətlərdir. Qeyd edilib ki, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi yeni magistral avtomobil yolunun 31 kilometrlik Ələt-Yenikənd hissəsi 2006-2009-cu illərdə inşa edilib. Yolun 23,4 kilometrlik Yenikənd-Salyan hissəsinin, həmçinin Kür çayı üzərində 363 metrlik körpünün və 1,2 kilometrlik yanaşma yollarının tikintisi isə 2016-cı ildə başa çatdırılıb və dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilib. Məlumat verilib ki, yolun 24,8 kilometrlik Salyan-Şorsulu, 30,1 kilometrlik Şorsulu-Cəlilabad və 39,2 kilometrlik Lənkəran-Astara hissələrində isə tikinti işləri cari ildə yekunlaşdırılıb. Bu hissələrin açılışı ilə Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi yeni magistral avtomobil yolunun daha 150 kilometrlik hissəsi istismara verilib. Bununla da Ələtdən Astarayadək 204 kilometrlik məsafədə tam yeni və müasir yolun inşası başa çatdırılıb.

**(davamı növbəti sayımızda)**

**Nurlan QƏLƏNDƏRLİ**

# "Nar" yarım ilin hesabatını və yenilənmiş brendini təqdim etdi




"Nar" 2018-ci il üçün yarım ilin nəticələrini açıqlayıb. Nəticələrə əsasən, mobil operator bu dövr ərzində bir çox göstəriciləri əhəmiyyətli dərəcədə artırmağa nail olub.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə "Nar"-ın aktiv abunəçi bazası 6% artaraq, 2,1 milyon nəfərə çatıb. Abunəçi bazasının 56%-i paytaxt Bakının, 44%-i isə regionların payına düşür.

Şəbəkə infrastrukturunun genişləndirilməsinə xüsusi önəm verən "Nar" il ərzində ölkə ərazisində 380 ədəd 4G, 118 ədəd 3G stansiyası qurub. İlin sonuna qədər daha 387 ədəd 4G, 29 ədəd 3G baza stansiyası qurulacaq. Bununla da 2018-ci il üçün planlaşdırılan 3G baza stansiyalarının sayı 2674, 4G baza stansiyalarının sayı isə 1706-ya çatdırılacaq. Aparılan şəbəkə işlərinin nəticəsi olaraq, 37 bölgə "Nar" 4G şəbəkəsi ilə əhatə olunub. "Nar" 4G baza stansiyalarının təqdim etdiyi yüksəkkeyfiyyətli mobil internet xidməti nəticəsində 4G internetinin trafik həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 3 dəfə artıb. Mobil operatorun 4G istifadəçilərinin sayı 250 min nəfərə çatıb.

"Nar" cari il üçün satış üzrə də yüksək nailiyyətlər əldə edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə satış üzrə 21%, səyyar satış komandasının yaradılması ilə ucqar kənd və ərazilərdə 77% artıma nail olub. Biznes tərəfdaşlarının sayını ildən-ilə sürətlə artıran mobil operator il ərzində 170-dən çox yeni korporativ şirkət cəlb edib. "Nar" korporativ müştəriləri üçün yeni sərfəli xidmətlər (smartfon, 4G data modem və portativ internet daşıyıcısı) təklif edir.

"Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke yarım ilin nəticələrini yüksək qiymətləndirib: **"Biz bu il öz mövqeyimizi bazarda daha da gücləndirmişik. İrihəcmli investisiyalar yatırmaqla şəbəkəmizi genişləndirdik, keyfiyyətimizi əhəmiyyətli dərəcədə artırdıq. Amma bununla yanaşı, yüksəkkeyfiyyətli xidmət və sərfəli qiymət strategiyası siyasətinə sadiq qalırıq".**

Tədbir zamanı "Nar"-ın yenilənmiş brendi, şüarı və reklam filmi təqdim olundu. Yenilənmiş brend müştərilərin ehtiyaclarını qarşılamaq, onların etibarlı tərəfdaşı olmaq məqsədi daşıyır. "Nar"-ın yeni - "Çünki daha çoxuna layiqsən!" şüarı məhz bu xüsusiyyətləri özündə birləşdirir və abunəçilərə yönəlik strategiyanı özündə əks etdirir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib.

# AzerTelecom şirkətindən korporativ müştərilər üçün SİP telefoniya xidməti

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti AzerTelecom korporativ müştərilərə SİP telefoniya xidmətini təqdim edir.

SİP telefoniya (Session Initiation Protocol Telephony) xidməti müştərilərə onların ofislərində keyfiyyətli rabitə xidməti əldə etməyə imkan yaradır və bir sıra üstünlüklərə malikdir.

Ənənəvi sabit xətt nömrələrindən fərqli olaraq, SİP nömrələrin sahibləri bu nömrələri heç bir əlavə xərc olmadan istədikləri ünvana daşıya bilərlər.

Həmçinin rabitənin yüksək keyfiyyəti, nömrənin təyini, nömrənin başqa bir nömrəyə ünvanlanması və böyük şirkətlərdə çağrı mərkəzlərində çoxlu sayda zənglərin qəbul edilməsi, eləcə də daxili virtual PBX (Private Branch Exchange) rabitəsi xidmətinin göstərilməsi SİP telefoniya xidmətinin üstünlükləri sırasındadır.

AzerTelecom tərəfindən korporativ müştərilərə təqdim olunan və internet İP üzərindən həyata keçirilən SİP telefoniya xidməti imkan verir ki, müştərilər müasir, keyfiyyətli və dayanıqlı rabitədən yararlansınlar.

AzerTelecom Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. Qeyd edək ki, şirkət SİP telefoniya xidməti ilə yanaşı, müştərilərə internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit xidməti, FTTx (hər hansı bir x nöqtəyə qədər fiber optik xətt), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), VoİP, DDOS hücumdan müdafiə kimi telekommunikasiya xidmətləri də təqdim edir.

# Jurnalistlər üçün pulsuz ingilis dili kurslarına qəbul başlayır

*Azercell media nümayəndələri üçün ingilis dili kurslarını bu il də davam etdirir*

Azərbaycanda KİV nümayəndələrinin inkişafına, onların peşəkar bacarıqlarının artırılmasına və beynəlxalq əlaqələrinin qurulmasına, həmçinin ingilis dilli mənbələrdən sərbəst istifadəsinə yardımçı olmaq məqsədilə çoxsaylı layihələr həyata keçirən "Azercell Telekom" MMC bu il də jurnalistlər üçün ingilis dili kurslarını təşkil edir. Oktyabr ayında start veriləcək kurslar çap, elektron və teleradio kütləvi informasiya vasitələrində çalışan aktiv peşəkarlar üçün açıqdır. Kurslarda iştirak etmək üçün jurnalistikada ən azı bir il iş təcrübəsinə malik olan şəxslər KİV-də dərc olunan 3 məqaləsini və jurnalist vəsiqəsinin surətini 2 həftə ərzində azercell.press@az-memo.info elektron ünvanı vasitəsilə şirkətə təqdim etməlidirlər. Dərslər ixtisaslaşmış ingilis dili müəllimləri tərəfindən əyani şəkildə həftədə 2 dəfə keçiriləcək. Qeyd edək ki, Azercell-in təşkil etdiyi xarici dil kurslarında yüzlərlə KİV nümayəndəsi iştirak edib.

Məlumat üçün bildirək ki, fəaliyyətə başladığı gündən etibarən Azercell media qurumlarının irəli sürdüyü təşəbbüsləri dəstəkləyir, jurnalistlərin peşəkar inkişafına yardım edən layihələri reallaşdırır, müxtəlif mövzularda seminar və təlimlərin təşkilini, bir sözlə, ölkəmizdə jurnalistikanın inkişafına yardım edən layihələrə dəstəyini davam etdirir.

# AQTA sahibkarların maarifləndirilməsi üçün videoçarx hazırlayıb

Qida Təhlükəsizliyi Agentliyi (AQTA) maarifləndirmə missiyasına uyğun olaraq, növbəti layihəsini həyata keçirir.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a bildirilib ki, qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qida təhlükəsizliyi qeydiyyatı ilə bağlı maarifləndirilməsi çərçivəsində yeni videoçarx hazırlanıb. **"Əsas məqsədimiz qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qanunvericiliyin tələblərinə uyğun olaraq qida təhlükəsizliyi qeydiyyatından keçmələri və öz fəaliyyətlərini daha səmərəli və innovativ şəkildə həyata keçirmələri ilə bağlı onları maarifləndirmək, qeydiyyat prosesi haqqında dolğun məlumatlar çatdırmaqdır".**

Videoçarxda həm agentliyin, həm də qeydiyyatdan keçmiş sahibkarlıq subyektlərinin nümayəndələri qeydiyyat proseduru ilə bağlı geniş məlumatlar verir, qida təhlükəsizliyi qeydiyyatının üstünlükləri, sahibkarlar üçün yaradacağı yeni imkanlar diqqətə çatdırılır.

Qeyd olunub ki, agentlik tərəfindən bir neçə gün əvvəl qida təhlükəsizliyi qeydiyyatı ilə bağlı iş adamlarına müraciətdə onlara müəyyən olunmuş vaxt ərzində qeydiyyatdan keçmələri ilə bağlı xəbərdarlıq olunub.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj:** **6074**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC", "Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
**Buraxılışa məsul**:
Zahid İLHAMOĞLU